SOLMAZ HƏSƏNLİ

# MƏKTƏBLƏRDƏ PEŞƏSEÇİMİNƏ PSİXOLOJİ RƏHBƏRLİK

SOLMAZ HƏSƏNLİ

# MƏKTƏBLƏRDƏ PEŞƏSEÇİMİNƏ PSİXOLOJİ RƏHBƏRLİK

**Metodik vəsait**

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin 29.05.2014-cü il tarixli, 655 saylı əmri ilə metodik vəsait kimi çapa məsləhət görülmüşdür.*

"Elm və təhsil"
Bakı – 2014

**Redaktor:** **GÜLTAC ƏLİYEVA**
Psixologiya üzrə fəlsəfə doktoru,
professor

**Rəyçilər:** **SALATIN HACIYEVA**
Psixologiya üzrə fəlsəfə doktoru

**SEVİNC ORUCOVA**
Psixologiya üzrə fəlsəfə doktoru

**Solmaz Həsənli. Məktəblərdə peşəseçiminə psixoloji rəhbərlik. Metodik vəsait. Bakı, "Elm və təhsil", 2014, 100 səh.**

**ISBN 978-9952-8142-7-9**

**© «Elm və təhsil», 2014**

# MÜNDƏRİCAT

**Ön söz** ........................................................................ 4
**Peşəseçimi və peşəseçimininin inkişaf mərhələləri ilə bağlı əsas nəzəriyyələr** .................................................. 7
**Peşəseçiminə psixoloji rəhbərlikdə bilinməsi vacib olan əsas cəhətlər** ........................................................... 27
1. Peşəseçiminə psixoloji rəhbərlikdə şagirdləri tanıma .......... 33
2. Peşəseçiminə psixoloji rəhbərlikdə peşələrin araşdırılması ........................................................... 43
3. Yeniyetmə və gənclərin fərdi xüsusiyyətləri ilə peşələrin tələb etdiyi xüsusiyyətlər arasında bağlılıq ....................... 48
**Peşəseçimi prosesində sistemlilik** ..................................... 52
**Yeniyetmə və gənclərin peşəseçiminə ailənin təsiri** ............ 72
**Peşə seçmək həyat tərzini seçməkdir** ................................. 83
**Peşəseçimində temperament tipinin nəzərə alınması** .......... 93
**Nəticə** ........................................................................... 98
**Ədəbiyyat** .................................................................... 100

## ÖN SÖZ

**“Sevdiyiniz işi seçin və həyatınız boyunca bir gün belə çalışmayın”.**

**Konfutsi**

**"Yatdım yuxumda həyatın sevinc olduğunu gördüm, sonra oyandım, həyatın bir vəzifə olduğunu anladım. Çalışmağa başladığımda gördüm ki, vəzifə də sevinc ola bilərmiş."**

**Rabindrant Tagor**

Təhsil dövlət quruculuğunun və cəmiyyətin gələcək inkişafının strateji sahəsidir. Gələcək inkişaf isə bu günkü insanların hazırlıq səviyyəsindən çox asılıdır. Bu səbəbdən də insanların gələcəyə hazırlıq məsələləri müasir təhsil sistemi qarşısında daha önəmli vəzifələr qoyur. Təbiidir ki, sözügedən inkişaf gənc nəslin savadlı, yüksək intellektual potensiala sahib, milli-mənəvi, əxlaqi, etik dəyərlərə yiyələnmiş insan kimi yetişməsi ilə yanaşı, psixoloji cəhətdən də sağlam, özünü yaxşı tanıyan, öz istək və arzuları ilə cəmiyyətin istək və arzuları arasnda tarazlıq yaradan, gələcək işlərini planlaşdırmağı bacaran və planlarına uyğun hərəkət edən gənc nəslin formalaşdırılması nəticəsində baş

verər. Bu baxımdan məktəblərdə psixoloji xidmətin səmərəli təşkilindən çox şey aslıdır.

Hazırda dünyada psixologiya elmi akademik elm olduğu qədər praktik elm kimi də öz effektini uğurla göstərir. Təbii ki, elm o zaman sözün həqiqi mənasında elm olur ki, onun praktik imkanlarından gərəkli şəkildə istifadə edilsin. Elə bu səbəbdən də qeyd edə bilərik ki, bu gün məktəblərdə psixoloji biliklərin praktik effektlərindən lazımi səviyyədə istifadə edilməsi vacibdir. Son günlərdə psixoloji xidmət sahəsinin formalaşması və inkişafı ilə psixologiyanın təlim-tərbiyə prosesində tətbiqi sahəsində mahiyyətcə yeni mərhələ yaranmışdır. Bu mərhələnin imkanlarından səmərəli istifadə olunmalıdır.

Azərbaycan məktəblərində psixoloji xidmətdən istifadənin tarixi uzun olmasa da artıq bir neçə ildir ki, bu sahədə müəyyən işlər görülmüşdür. Sözsüz ki, xaricdə olduğu kimi ölkəmizdə də psixoloji biliklərin praktik olaraq həyata keçirildiyi əsas sahələrindən biri, ilk növbədə, məktəb təcrübəsi olmuşdur. Çünki insan övladının sağlam psixoloji varlıq kimi formalaşması üçün ən məsuliyyətli mərhələ elə uşaqlıq, yeniyetməlik və gənclik dövrü hesab olunur ki, bu dövrlərin də demək olar ki, haradasa bütün mərhələləri təhsil qrumlarında keçir. Bu müəssisələrdə onlar daha çox müstəqil həyata, gələcəyə hazırlanırlar.

Bu gün məktəb psixoloqlarının gənc nəslin psixoloji baxımdan sağlam, gələcəyini gərəkli şəkildə planlaşdırmağı bacaran, istedad və qabiliyyətinə yaxından bələd olan, bir sözlə, özünü yaxşı tanıyan gənclər kimi formalaşdırılma-

sında üzərlərinə böyük vəzifə və işlər düşür. Elə buna görə də düşünürük ki, bu gün məktəb psixoloqlarının şagirdlərə gələcək həyatlarını müəyyənləşdirməkdə əsas, önəmli və məsuliyyətli mərhələlərdən biri olan peşəseçimində yardım etmələri və istiqamət vermələri çox gərəklidir. Bu işin uğuru həm də, gənc nəslin gələcəkdə özlərini sahib olduqları peşələrdə toplumun tələbatına uyğun olaraq daim inkişaf etdirən, cəmiyyətə faydalı insanlar qazandırmaq deməkdir. Təbiidir ki, bu işdə məktəb psixoloqları sadəcə məktəblilərlə deyil, onların ailələri ilə də lazımi işlər aparmalıdır. Çünki ailə gənclərin peşəseçiminə böyük təsir göstərən önəmli bir mühitdir.

Düşünürük ki, hazırladığımız metodik vəsait məktəb psixoloqlarına, pedaqoqlara, universitetlərin pedaqoji fakültələrində, xüsusən təhsilə psixoloji xidmət ixtisasında oxuyan tələbələrə gələcək fəaliyyətlərində yardım edəcək.

## PEŞƏSEÇİMİ VƏ PEŞƏSEÇİMİNİNİN İNKİŞAF MƏRHƏLƏLƏRİ İLƏ BAĞLI ƏSAS NƏZƏRİYYƏLƏR

XX əsrin ilk illərindən işlədilməyə başlanılan "Peşəseçiminə psixoloji rəhbərlik" anlayışı peşəseçiminə rəhbərlik xidmətlərinin müəyyənləşdirilməsi və əsaslandırılmasında bir çox dəyişikliklərə səbəb olmuşdur. Bu anlayışından ilk dəfə 1909-cu ildə istifadə edən Amerika psixoloqu Frank Parsons olmuşdur. 1909-cu ildə o bu mövzuda yazdığı ilk yazılı mənbədə peşəseçiminə psixoloji rəhbərlik anlayışına "gənclərə hər hansı bir peşə seçiminə hazırlaşmaqda, peşə sahib olmaq yollarını axtarmaqda, peşə seçməkdə, faydalı və uğurlu bir mütəxəssis olmaqda yardım xidmətləri" olaraq tərif vermişdir. F.Parsonsun verdiyi bu tərif uzun illər bütün dünyada peşəseçiminə psixoloji rəhbərliyə verilən əsas tərif hesab edilmişdir. Bu tərifə əsasən peşəseçiminə psixoloji rəhbərlik pedaqoji prosesin müəyyən bir mərhələsində verilən peşəseçimi qərarı üçün insana göstərilən yardım xidməti olaraq qəbul olunmuşdur. Bu xidmət ibtidai siniflərdən başlayaraq orta ümumtəhsil məktəbinin son siniflərini də əhatə edərək "istiqamətləndirmə" xidməti ilə nəticələndirilir.

1950-ci illərdə Amerika Birləşmiş Ştatlarında peşəseçiminin inkişaf prosesinə, əsasən də sözügedən inkişafın uğurla təmin olunmasına xüsusi diqqət yetirilmişdir. Bu prosesin səmərəli təşkilinin toplumun inkişafı baxımından önəmli amil olduğuna diqqət çəkilmişdir.

Yeniyetmə və gəncləri uyğun peşələrə istiqamətləndirilməsində əsas və vacib fəaliyyət olan peşəseçiminə psixoloji rəhbərlik və peşəseçiminin inkişaf mərhələləri ilə bağlı bir çox araşdırmalar aparılmışdır. Bu işdə gərəkli olan cəhətlərin göz önündə tutulması üçün həmin araşdırmalar və bu sahədəki əsas nəzəriyyələr haqqında məlumat sahibi olmaq çox vacibdir.

Peşəseçiminə psixoloji rəhbərlikdə gənclərin məktəb psixoloqu tərəfindən tanınması və onlara özlərini tanıtma işi olduqca önəmli məsələdir. Bununla bağlı olaraq gənclərdə "peşəseçiminin inkişafı" (vocational development) anlayışı üzərində dayanmaq faydalıdır.

"Peşəseçiminin inkişafı" anlayışı birbaşa olaraq uşaqlarda, yeniyetmə və gənclərdə bir proses olaraq peşə fikrinin formalaşması və inkişafı ilə bağlıdır. Bu proses uşaqlarda peşə ilə bağlı ilkin fikir və düşüncələrin meydana çıxmasından başlayaraq bir peşə sahibi olana qədər davam edən inkişaf mərhələlərini əhatə edir. Artıq günümüzdə yeniyetmə və gənclərin hər hansı bir peşəni seçmələrinə qərar vermələrinin ani bir qərar olmadığı bilinən və qəbul edilən bir fikirdir. Heç şübhəsiz ki, gənclər seçəcəkləri peşə haqqında birdən-birə qərar vermirlər. Bu uzun zaman daxilində baş verən və müəyyən inkişaf mərhələləri keçən bir pro-

sesdir. Peşəseçiminin inkişaf mərhələlərinin gəncin peşəseçiminə təsiri heç şübhəsiz ki, son dərəcə önəmlidir. Bunun üçün də məktəb psixoloqlarının peşəseçiminin inkişaf mərhələlərini, onların xüsusiyyətlərini bilmələri də vacib amillərdəndir. Yeniyetmə və gənclərdə peşəseçiminin önəmli məsələləri və peşəseçiminin inkişafı prosesinin necə olduğu, bu inkişafa hansı amillərin təsir göstərdiyi haqqında pedaqogika və psixologiya tarixində bir-birindən fərqli müxtəlif nəzəriyyələr mövcuddur. Peşəseçimi və peşəseçiminin inkişaf mərhələləri haqqındakı nəzəriyyələri qısa da olsa diqqətə çatdırmağı vacib bilirik:

* **1. Q.L.Holland** peşəseçimi ilə bağlı irəli sürdüyü ideyanı insanların xarakter xüsusiyyətlərinə və sosial uyğunlaşma səviyyələrinə əsasən izah edir. Ona görə, adətən insanlar peşə seçərkən öz xarakter xüsusiyyətlərinə və sosial uyğunlaşma səviyyələrinə münasib peşələrə yiyələnməyi arzulayırlar. O, peşəseçimi ilə gəncin sahib olduğu mənlik şüuru arasında yaxın bir əlaqənin olduğunu göstərir.

Q.L.Holland **realist, intellektual, sosial, ənənəvi, təşəbbüskar** və **artist tip** (2,46) olmaqla 6 insan tipi olması fikrini irəli sürür. Bu görüşə görə, peşəseçimində uyğun peşənin seçilməsi üçün gəncin hansı xarakter tipinə aid olduğunu bilməsi və o xarakter tipinə uyğun peşə sahələrini özü üçün müəyyənləşdirməsi önəmlidir.

Mövzu ilə bağlı mənbələrin araşdırlımasından gəlinən ümumi nəticəyə əsasən Q.L.Hollanda görə, 6 xarakter xüsusiyyət və bunlara uyğun peşələr aşağıdakılardır:

*1. Realist tip.* Hər zaman reallığı görməyə meyilli insandır. Daha çox əzələ və fiziki gücünə bağlı fəaliyyətlərə yönəlir. Hünərli və qüvvətlidir. Açıq havadakı işlərə daha çox meyl edir. Sərt, aqressiv, kobud, nitq qabiliyyəti olmayan, məntiqi düşüncələrdən qaçan insanlardır. Düşünməkdən daha çox praktik işlərə yönəlirlər. Sürücü, əkinçi, mühəndis və s.

*2. İntellektual tip.* Ziyalı insanlardır. Bu insanlar praktik işlərdən daha çox məntiqli düşünməyə meyl edirlər. Realist tip kimi söhbəti sevən insanlar deyillər. Nitq qabiliyyətlərindən lazımi səviyyədə istifadə etmirlər. İnsanlarla ünsiyyət qurmaqdan qaçırlar. Nə idarə etmək, nə də idarə olunmaqdan xoşları gəlmir. Nəzakətli, radikal, orjinal insanlardır. Alimlər və s.

*3. Sosial tip.* Pedaqoji və tibb sahəsində çalışan insanlarda olması vacib olan xüsusiyyətlərə sahib insanlardır. İlk iki tipdən bu tipi ayıran əsas xüsusiyyət nitq qabiliyyətlərindən məharətlə istifadə etmələri və insanlarla aktif ünsiyyət qurmağa meyilli olmalarıdır. Əsas xarakter xüsusiyyətləri sosial, davamlı müsbət emosional hala sahib, macərapərəst, liderlik xüsusiyyəti yüksək, praktik düşüncəyə meyilli, məsuliyyətli olmalarıdır. Müəllimlər, psixoloqlar, həkimlər və s.

*4. Ənənəvi tip.* Adət-ənənələrə həddindən çox bağlıdırlar. Qüvvətli bir mənlik nəzarətləri vardır. Əmr almaq, əmr verməkdən narahat olmazlar. Qüdrətə və sosial mövqeyə çox bağlıdırlar. Rəsmi, bəzən əyləncəyə meyilli, prak-

tik düşüncəyə sahib insanlardır. Hərbiçilər, **bank işçiləri**, rəsmi idarələrdə çalışanlar və s.

*5. Təşəbbüskar tip.* Təlqin gücünə sahib, nitq qabiliyyətləri və özlərini ifadə etmək qabiliyyəti ən yüksək səviyyədə olan tipdir. Sosial tip başqaları üçün, bu tip isə özü üçün çalışar. Sosial, macərapərəst, müstəqil, aktiv, aqressiv, praktik düşüncələri üstün olan tiplərdir. Ticarət işçiləri, siyasətçilər, menecerlər və s.

*6. Artist tip.* Bu insanlar ətraflarındakı insanlardan istifadə edərək özlərini dolayı yollardan ifadə edirlər. Ənənəvi tipin tam olaraq əksidir. Qayda-qanunları heç sevmirlər. Özlərinə tam olaraq nəzarət edə bilməzlər. Kamilləşməmiş, uşaq xasiyyətli, müstəqillikləri yüksək səviyyədə olan tiplərdir. Yazıçı, rəssam, aktyor, musiqiçi, memar və s.

❋ **2.** Amerika elm adamlarından **R.Hoppokun** nəzəriyyəsi peşəseçiminə dair nəzəriyyələr içərisində mövzu baxımından daha geniş təhlil edilmişdir. Bu nəzəriyyəyə görə:

❒ 1. Gənclər şüurlu ya da şüursuz olaraq bəzi emosional tələbatlarını təmin etmək məqsədi ilə peşə seçirlər.

❒ 2. Seçilən peşə gəncin öz tələbatlarını yetərli səviyyədə təmin edəcəyini zənn etdiyi bir peşədir.

❒ 3. İstər nəzərə çarpacaq şəkildə açıq olsun, istərsə də insanın yönəldiyi davranışlara baxaraq sadəcə hiss edilə bilən bir səviyyədə olsun insanın bütün tələbatları onun peşəseçiminə təsir göstərir.

❒ 4. İnsanın tələbatları və bu tələbatları ödəmə səviyyəsi davamlı olaraq dəyişiklik göstərdikcə və o öz tələbat-

larını daha çox yetərli səviyyədə təmin edən yeni peşələr haqqında məlumata yiyələndikcə peşəseçimi də buna bağlı olaraq dəyişiklik göstərir. (5,68)

✱ 3. Gənclərin peşəseçiminin inkişaf mərhələləri ilə bağlı ilk fikirlər psixoanalitik nəzəriyyəçilər, freydistlər tərəfindən irəli sürülmüşdür. Bu nəzəriyyəyə görə gənclərin peşəseçiminə təsir göstərən ən önəmli amil də onların cinsi inkişaf səviyyələridir. Bu nəzəriyyə haqqında bir çox tənqidi fikirlər olsa da peşəseçimində ilk dəfə olaraq fərdin xarakter xüsusiyyətlərinə diqqət yetirməyi vacib sayması baxımından önəmli ideya sayıla bilər.

✱ 4. **Anna Roenin** nəzəriyyəsinə görə, insanın peşəseçiminin inkişafı birbaşa olaraq onun uşaqlıq dövründəki maraqlarına və bu maraqların təməlində yatan tələbatlarını necə təmin edilməsinə bağlıdır. Buna görə uşaqla ailə üzvləri, xüsusən də ata-ana arasında münasibətlər, maraq və tələbatlar, bunaların inkişaf və təmin edilmə səviyyələri və s. amillər peşəseçiminin ilk müəyyənləşdiriciləri olaraq qəbul edilməlidir.

Bu nəzəriyyə irəli sürülən 7 fərziyyədən ibarətdir. Bu 7 fərziyyədən 4 fərziyyədə aşağıdakı fikirlər irəli sürülür:

❐ 1. Tələbatların dərəcəsi uğur əldə etmə motivinin dərəcəsini göstərən təməl bir müəyyənləşdiricidir.

❐ 2. Normal olaraq tələbatların təmin edilməsi insanın şüuraltı motiv mənbələrini inkişaf etdirməsinə mane olur.

❐ 3. Təmin edilməmiş tələbatlar yüksək səviyyədə bir tələbat isə silinmiş kimi görünür, alt səviyyədəki təmin edilməmiş tələbatlar da üst səviyyədəki bir tələbatın hiss

edilməsinə mane olur. Bu təmin edilməmiş tələbatlar peşə-seçiminə önəmli bir müəyyənləşdirici kimi təsir göstərir.

❐ 4. Hissedildiyi halda təmin edilməsi gecikdirilmiş tələbatlar şüuraltı motiv qaynaqlarına çevrilir və s. (5,68)

Sözü gedən nəzəriyyəyə görə, şəxsin peşəseçiminə təsir göstərən bu maraq və tələbatların inkişafı və təmin edilmə səviyyələri uşağa çox dəyər verildiyi, uşağa çox bağlı olan ailələrdən və ya uşağı özbaşına, nəzarətsiz buraxan, övladla maraqlanmayan, ya da uşağa normal münasibətin bəsləndiyi ailələrdən gəlmələrinə bağlı olaraq insanlar arasında çox önəmli fərqlər meydana çıxarır.

✱ 5. Amerika psixologu **L.E.Isaacson** peşəseçiminin inkişaf mərhələlərini belə müəyyənləşdirmişdir:




*1. Oyanış və fərqində olmaq.* Bu dövr uşaqda peşə şüurunun meydana gəldiyi dövrdür. Məktəbəqədər yaş dövründən başlayaraq ibtidai sinifləri də əhatə edir (5-12 yaş). Uşaq bu dövrdə ətrafdakı insanların bir-birindən fərqli

fəaliyyət və peşələri olduğunu, müxtəlif peşələrin varlığını görməyə və anlamağa başlayır.

İbtidai sinfin son illərində isə uşaq özü və digər insanlar arasında maraq, qabiliyyət, məqsəd və motivasiya baxımından fərqlərin və bənzərliklərin olduğunu dərk edir.

*2. **Peşələri kəşf etmək və araşdırmaq.*** Bu dövr 12-15 yaşlarını əhatə edir. Bu dövrdə yeniyetmə insanların və peşələrin ortaq və fərqli xüsusiyyətləri ilə bağlı daha çox məlumat sahibi olmağa, yeni cəhətləri daha çox kəşf etməyə və anlamağa başlayırlar. Peşələri kəşf etmək, təhlil etmək və araşdırma dövrü bir çox insan üçün ömür boyu davam edir.

*3. **Qərar vermək.*** 15-18 yaşları əhatə edən bu dövrdə gənc artıq özü və peşələr haqqında formalaşdırdığı düşüncəyə əsaslanaraq məlumatları dəyərləndirir, bir-birinə uyğunlaşdırmağa və gələcəyi ilə bağlı daha ciddi planlar qurar. Bu plan və düşüncələr ilk başlanğıcda keçici ola bilər, amma getdikcə daha açıq və qəti plan ortaya qoyan gənc qərarını verir.

*4. **Hazırlıq.*** 18-23 yaşlarını əhatə edən bu dövrdə gənc seçdiyi peşə ilə bağlı olaraq ali məktəb, peşə məktəblərində təhsilini davam etdirir və yaxud da birbaşa olaraq peşə fəaliyyətinə başlayır. Peşə ilə bağlı bilik və məlumatlarını artırır, gərəkli praktik bacarıq və vərdişlər əldə edərək seçdiyi peşəni icra etmək üçün hazır vəziyyətə gəlir. Eyni zamanda o peşə ilə bağlı iş imkanlarını da daha geniş şəkildə və dərindən araşdırmağa başlayır.

*5. **İşə başlamaq.*** İnsanın iş həyatında yerini tutaraq çalışmağa başladığı dövrdür. Bu dövrdə insan qazandığı

bilik, bacarıq və vərdişləri praktik olaraq həyata keçirir. Seçdiyi peşədə praktik olaraq çalışaraq eyni zamanda peşə inkişafı mərhələlərindən də praktik olaraq keçər. (8,194)

**6.** 1951- ci ildə Amerika psixoloqu **Eli Ginzberq** və onun həmkarları peşəseçimi məsələsinə bir inkişaf prosesi olaraq diqqət yetirmiş və bu prosesi mərhələlər şəklində araşdırmışlar. Peşəseçiminə qərar vermə dövrü üç mərhələdə araşdırılmışdır.

Hər dövr öz daxilində bir-birinə bağlı bir neçə mərhələyə bölünür. Bu nəzəriyyəyə görə gənclərdə peşəseçimi fikri qeyd edilən mərhələlərdən keçərək inkişaf edir, formalaşır. Peşəseçiminin inkişafı ilə bağlı sözügedən nəzəriyyəçilərə görə peşəseçimi zamana bağlı olaraq inkişaf edən və uzun illərdən sonra inkişafını tamamlayan bir prosesdir. Gəncin davamlı olaraq qazandığı təcrübələr peşəseçiminə böyük təsir göstərir, ayrıca seçim prosesinin özü bütün mərhələləri uzlaşdırıcı bir xarakter daşıyır.



*1. Fantaziya dövrü (5-11 yaş arası).* Uşaqlar daha kiçik yaşlarından evdə ailə üzvlərinin və ailə çevrəsindəki insanların yerinə yetirdiyi fəaliyyətləri müşahidə edir, bu fəaliyyətləri oyunlaşdıraraq təqlidinə çalışırlar. Bu dövr uşaqların müxtəlif peşə təqlidlərini həyata keçirdiyi dövrdür. Bu dövrdə uşaqlar onlara daha çox emosional təsir göstərən peşələrlə bağlı fantaziyalara yönəlirlər. Bəzən həkim, müəllim, polis, futbolçu, bəzən sürücü, təyyarəçi olmaq arzusu onlarda baş qaldırır. Lakin bu istək və arzuların ömrü çox qısa olur və tez-tez dəyişir.

*1. Müvvəqqəti seçim dövrü (11-17 yaş arası).* Yeniyetməlik yaş dövrünə təsadüf edən bu dövrdə məktəblilər gələcək həyatları üçün bir peşə, sənət sahibi olmağın zəruriliyi haqqında daha ciddi düşünürlər. Lakin bu dövrün özünəməxsus psixoloji xüsusiyyətləri ilə bağlı olaraq yeniyetmələrin hələ də bu mövzudakı fikirlərində romantiklik özünü göstərir. Tarix səhnəsində, idmanda, bədii ədəbiyyatda və kinoda pərəstiş etdiyi qəhrəmanların, yaxın ətrafında ideal seçdiyi insanların peşələrinə istiqanmətlənirlər. Daha çox hərəkət tələb edən, prestijli, toplumda diqqət çəkən peşələr onu daha çox özünə cəlb edir. Bu yaş dövründəki peşə maraqları daha şüurludur və keçici xarakter daşıyır. Yeniyetmələrdəki peşə maraqları dəyişmələrə açıqdır.

*2. Həqiqi seçim dövrü (17 yaş və yuxarı yaşlar).*Bu dövrdə gənclər reallığı görə və dərk edə bilirlər. Gənclər bəzi peşələri daha ciddi olarak düşünməyə, bu peşələr qarşısında özünü sınaqdan keçirməyə və dəyərləndirməyə

başlayırlar. Gənc peşə seçmə məsələsi ilə bağlı daha ciddi və şüurlu şəkildə maraqlanır. Öz istedad və qabiliyyətlərini, peşənin tələblərini müəyyənləşdirməyə, bu iki xüsusiyyət arasında tarazlıq tapmağa çalışır. Gəncin peşə maraqları bəzi peşələrin üzərində daha da mərkəzləşir. Bir və ya iki peşə üzərində mərkəzləşmiş olan bu peşə maraqları daha da davamlı və qalıcıdır. Bu dövrün sonunda gənc artıq özünə uyğun bildiyi bir peşəni seçməyə qərar verib özünü həmin peşəyə hazırlamaq ehtiyacı hiss edərək bir sıra fəaliyyətlərə yönəlir.

* 7. D.E.Superə görə peşə inkişafı davamlı bir proses, peşəseçimi isə bir sintezdir. Bu da öz növbəsində öyrənmə ilə yaxından əlaqəlidir.

Gəncin peşə inkişafı gənc ilə mühit arasındakı qarşılıqlı təsirin nəticəsi olaraq meydana çıxır və bu təsir davamlı xarakter daşıyır. Ancaq gənc hər zaman bu təsirin olduğunu hiss etməyə bilər. O, qeyd edirdi ki, peşəseçimi müəyyən bir inkişaf prosesi içində insanla mühitin qarşılıqlı təsiri nəticəsində meydana gələn mənlik şüurunun hər hansı bir peşədə əksini tapması və ifadə olunmasıdır. D.E.Superə görə gəncin peşə modeli ailənin sosial-iqtisadi səviyyəsi, gəncin zehni potensialı, xarakter xüsusiyyətləri və həyatda qarşılaşdığı imkan və fürsətlərə görə formalaşır. Gəncin peşəseçiminə təsir göstərən amilləri on bənddə izah edən D.E.Super qısaca olaraq qeyd etsək, gənclərin peşə inkişaflarında onların bacarıq və qabiliyyətləri, maraq və mənlik şüurunun xüsusi bir yeri olduğunu göstərmiş, qərarın peşəseçimi inkişafının müxtəlif mərhələlərindən keçərək dəyiş-

diyini qeyd etmişdir. Bundan başqa burada peşəseçimində ailənin iqtisadi vəziyyəti və gəncin qarşılaşdığı fürsətlərlə gənc ilə mühit arasındakı təsirin önəmli olduğu vurğulanmışdır.

D.E.Superə görə bir insanın hər hansı bir peşəni seçməsi onun bu seçimə qədər qazandığı mənlik şüurunu, özünü qavrama formasını bir növ praktik olaraq həyata keçirməyə çalışmasıdır. Peşə insanın özünü qavramasının təməl bir ifadəsidir. Əslində mənlik şüuru insanın özünü necə görməsi olub necə görmək istəməsinə birbaşa olaraq təsir edir. Məsələn, özünü fiziki baxımdan güclü və cüssəli bir insan olaraq qəbul edənin peşəseçimi ilə bağlı qərarı musiqi qabiliyyətinin olduğunun fərqinə varan bir insanın peşəseçimi qərarından fərqlidir.

İnsanda peşəseçimi prosesinin inkişaf mərhələləri əsasən ***D.E.Super*** tərəfindən belə müəyyənləşdirilmişdir



*1. Böyümə mərhələsi (0-14 yaş).* Bu dövrdə uşağın mənlik şüuru ətrafındakı insanların təsiri ilə inkişaf etməyə başlayır. Uşağın ətrafdakı insanlardan nümunə götürməsi peşə şüurunun formalaşmasında böyük önəm daşıyır. Bu dövr fizioloji, psixoloji və sosial baxımdan sürətli inkişafın baş verdiyi bir dövrdür. Bu dövrdə uşaq sadəcə fizioloji baxımdan deyil, zehni, psixoloji və sosial baxımdan da inkişaf edir. Təlim fəaliyəti intellektual səviyyəsini, qabiliyyətlərini inkişaf etdirir, müxtəlif insanlarla ünsiyyətə qoşulur, sosial rol qazanır və eyni zamanda gələcək sosial rolunu müəyyənləşdirməyə çalışır. Bu dövrdə məktəblilərin insanlarla ünsiyyətləri sayəsində özləri, potensial imkanları haqqında düşüncələri daha da aydınlıq qazanır, mənlik şüuru ilə peşələr arasında bağlılıq qurmağa çalışırlar.

Böyümə mərhələsində mənlik şüurunun inkişafı ilə bağlı olaraq tələbatlar müəyyənləşir, qabiliyyət və istedadlar xüsusi əhəmiyyət kəsb edir, peşələrə istiqamətlənmə diqqəti cəlb edir, peşə sahələri ilə bağlı qabiliyyətlər ortaya çıxır.

Bu mərhələ üç alt mərhələyə ayrılır: *xəyal mərhələsi, maraq mərhələsi, qabiliyyət mərhələsi.*

*Xəyal mərhələsində (4-10)* uşağın davranışlarında həvəs, arzu və ani tələbatların təsiri böyükdür. Xəyal qurmaq və peşə rollarını sınaqdan çıxarmaq özünü daha çox göstərən fəaliyyətlərdir.

*Maraq mərhələsində (11-12)* uşaqda bəyəndiyi və xoşuna gələn müəyyən fəaliyyətlərə və peşə sahələrinə qarşı ilkin maraq yaranır.

*Qabiliyyət mərhələsində (12-14)* fərdi qabiliyyətlərə böyük önəm verilir. Fəaliyyətin tələb etdiyi qabiliyyətlərə daha çox diqqət yetirilir.

***2. Araşdırma mərhələsi (15-24 yaş).*** Bu mərhələ əsasən gənclik yaşını əhatə edir. Bu mərhələ digər mərhələlərdən fərqli olaraq daha gərgin bir araşdırma və təhlil etmə mərhələsidir. Bu dövrdə gənc özü haqqında daha real məlumatlara sahibdir. Hansı fəaliyyətlərə qarşı marağının olduğunu və bu fəaliyyətlərdə uğur qazanıb-qazanmaması və hansı səviyyədə uğur qazanması haqqında daha çox düşünməyə başlayır, cəmiyyətin böyük önəm verdiyi dəyərlər haqqında məlumat sahibi olur. 18 yaşından başlayaraq gələcəklə bağlı planlarda daha real düşüncələr özünü göstərir. Gənclər bu dövrdə maraq, bacarıq və qabiliyyətlərinin yetərli səviyyədə olub-olmadığını dərk edir, yaxşı bir təhsil almaq və sərmayə sahibi olmaq kimi imkanların da çox əhəmiyyətli olduğunu dərk edir.

Peşəseçimi qərarı verilərkən psixoloji və sosial xüsusiyyətlərə daha çox diqqət yetirilir. Əgər hər hansı bir problem ortaya çıxmasa bu qərarlardakı qətilik artır. Ümumiyyətlə, bu dövr özünü tanıma, rolların sınaqdan çıxarılması, peşə araşdırmaları kimi fəaliyyətlərin həyata keçirildiyi bir dövrdür.

Bu mərhələ üç alt mərhələyə ayrılır: *təcrübə mərhələsi, keçici mərhələ, araşdırma mərhələsi.*

*Təcrübə mərhələsi (14-17)* maraqlar, tələbatlar, qabiliyyətlər, dəyərlər və imkanların diqqət mərkəzində olduğu, real seçimlərin həyata keçirildiyi və bəzən yarım günlük

əmək fəaliyyətlərində bu seçimlərin düzgün olub-olmadığının sınaqdan çıxarıldığı bir dövrdür.

*Keçici mərhələ (18-21)* gəncin əmək fəaliyyətinə hazırlaşdığı və reallıqla qarşılaşdığı bir mərhələdir. Artıq "mən" anlayışını fəaliyyətində praktik olaraq həyata keçirir.

*Sınaq və izləmə mərhələsi (22-24)* insan artıq özünə uyğun bir əmək fəaliyyətinə başlamışdır. Başlanğıc olaraq bir peşə fəaliyyətinə başlayır və bu peşənin öz imkan və potensialına uyğun olub-olmadığını sınaqdan çıxarmağa, eyni zamanda öz fəaliyyətini dərindən izləməyə başlayır.

Araşdırma mərhələsi 25 yaşlarına qədər davam edir. Ancak bundan sonra sınama fəaliyyətləri gedərək azlmağa başlayır. Bir işə bağlanma daha da qətiləşir. İnsan haqqında daha geniş və ətraflı məlumat topladığı əmək həyatında maraqlarından yaranan tələbatları təmin etmək üçün uyğun yollar axtarır. Bu zaman məqsədlərinin bəzilərindən əl çəkə, bəzilərini dəyişdirə bilər. Bu dövrdə hər hansı bir əmək fəaliyyətinə başlama, ailə həyatına başlama ilə bağlı düşüncələr tez-tez özünü göstərir.

***3. Yerləşmə mərhələsi: (25-44 yaş).*** Bu mərhələnin əsas xüsusiyyəti hər hansı bir ixtisasda, bir peşə sahəsində insanın qərarlı bir şəkildə yerləşmədir. Artıq bu mərhələdə insan davamlı xarakter daşıyacaq bir əmək fəaliyyətinə qoşulur və kariyera qazanmaq üçün səy göstərir. D.E.Super bu mərhələni də iki alt mərhələyə bölür: *sınaq mərhələsi (25-30) və möhkəmlənmə mərhələsi (31-44).* Bu mərhələnin ilk başlarında iş dəyişdirmə müşahidə edilə bilər. Ancaq bu olmadan da yerləşmə mərhələsi başa çata bilər. Bu mər-

halədə insan maraq göstərdiyi peşəni sınaqdan keçirir, peşə ilə bağlı lazımi məlumat əldə etmək üçün araşdırma aparır, keçici xarakter daşyan iş tapmaq və bir kariyera qazanmaq üçün ilk addımlar atır. Sınama mərhələsinin başlanğıcında insanın seçdiyi hər hansı bir əmək fəaliyyəti sahəsi onu maraq və meyillərinə cavab verməyə bilər və həqiqi peşə həyatına başlamadan bir neçə iş dəyişdirmə davranışı müşahidə edilə bilər.

Möhkəmlənmə mərhələsində insan seçdiyi əmək fəaliyyəti sahəsində öz yerini daha da möhkəmləndirir. Güvənli bir əmək fəaliyyətinə başlayır.

***4. Qoruma və davam etdirmə mərhələsi: ( 45-64 yaş ).*** Bu mərhələdə insan seçdiyi və çalışdığı peşə və ixtisasda yerini qorumağa çalışır. Bütün fəaliyyəti sahib olduğu işi qorumağa istiqamətlənir. Bu dövrlərdə peşəsindən ayrılmaq məcburiyyətində olan insanlarda digər yaş dövrlərindən fərqli olaraq daha çox stres və depresiyalar müşahidə edilir. Çünki artıq bu yaşda peşə insan üçün həyatının mənasını təşkil edir və insan nə olursa olsun onu qorumağa çalışır.

***5. Düşmə ( pensiya ) mərhələsi: ( 65 yaşdan sonra ).*** Pensiya illərini əhatə edir. Peşə fəaliyyətinin başa çatması da adlandırılan bu mərhələ insan həyatının fiziki və zehni gücünün çökməsi ilə xarakterikdir. Bu illərdə insan fiziki gücündən çox təcrübəsindən faydalanır. Qalan günlərini öz istəyinə bağlı olaraq peşəsi ilə əlaqəli olan, ya da xüsusi maraq sahəsi ilə bağlı istiqamətdə fəaliyyət göstərməklə keçirir. 71 yaşdan sonra bütünlüklə əmək fəaliyyətindən ayrılmaq məcburiyyətində qalır. Bəzi insanlar bu yaşda əmək

fəaliyyətindən ayrılmağı vəziyyətlə barışaraq qarşılayırlar, bəziləri isə əmək fəaliyyətindən ayrılmağı çox çətinliklə qəbul edirlər.

❋ 7.Gənclərdə peşəseçiminin inkişafı mövzusunu araşdıran görüşlər arasında **D.V.Tiedman** və **R.P.Ohara da** peşəseçiminin inkişaf mərhələləri ilə gənclərin xarakter xüsusiyyətləri arasındakı əlaqəyə diqqət çəkir.

❋ **8.** Son zamanlarda dünya təhsilində Amerikan psixoloqu **Hovard Gardnerin** 1983-cü ildə ortaya qoyduğu çoxlu zəka nəzəriyyəsi geniş şəkildə tətbiq edilir. Amerikalı psixoloq Hovard Gardner ortaya qoyduğu çoxlu zəka nəzəriyyəsi ilə insan beyninin birdən çox intellektual sahəyə sahib olduğunu İQ və ya digər zehni potensialı ölçmək üçün istifadə edilən testlərin bu işdə bir o qədər də səmərəli bir metod olmadığı fikrini irəli sürür. Onun fikrincə pedaqoji proses əsas olaraq şagirdlərin bacarıq və vərdişlərini deyil, onların güclü və zəif cəhətlərini ortaya çıxarır.

H.Gardner insan beyni üzərində apardığı araşdırmalar nəticəsində belə bir iddia irəli sürmüşdür ki, beyinin müxtəlif bölümləri müxtəlif simvol qruplarına xidmət edir. O, bu fəaliyyətlərin nəticəsində insanda olan səkkiz müxtəlif intellekt tipinin varlığı ilə bağlı çoxlu zəka nəzəriyyəsini irəli sürmüşdür. Mövcud ədəbiyyatın araşdırılması nəticəsində belə bir ümumiləşdirmə aparmaq mümkündür ki, H.Gardnerə görə, səkkiz zəka sahəsi və bunlara uyğun peşələr aşağıdakılardır:

❒ ***1. Sözlü (verbal) zəka***: Nitq qabiliyyəti tələb edən sahələrdə uğur qazanan insanlarda bu zəka tipi mövcuddur.

Dildən çox yaxşı istifadə edən, dilin qayda-qanunlarını bilən, tətbiq edən, yeni dillər öyrənməyə meyl edən insandır. Bu insanlar yazı yazmaq sahəsində çox yaradıcıdırlar. Mütaliəni sevirlər. Bu zəkanın üstün olduğu insanların seçdikləri peşələr: yazıçılıq, siyasət, ədəbiyyat və s.

❒ *2. Riyazi-məntiqi zəka:* Bu insanlar məntiqi düşünmə gücünə sahibdirlər. Riyaziyyat ilə bağlı bir çox sahələrdə uğur qazanan, hadisə və problemlərin fərqli yönlərini təhlil edə bilən insanlarda mövcuddur. Parça-bütün və səbəb-nəticə əlaqələri qurmaq mövzusunda daha çox uğur qazanırlar. Problem həll etmə sahəsində olduqca bacarıqlı və qabiliyyətlidirlər. Bu zəkanın üstün olduğu insanların seçdikləri peşələr: riyaziyyatçı, mühəndis, statistik, kompüter mühəndisi və s.

❒ *3. Görmə zəkası:* Müşahidə qabiliyyətləri həddən artıq güclüdür. Ümumiyyətlə görmə zəkası öyrənmənin keyfiyyətini artırır. Gördükləri sxem, rəsm və s-nin ayrıntılarına, kiçik detallarına diqqət edirlər. Peşə seçimində uğur qazana biləcəkləri peşələr: rəssamlıq, memarlıq, aktyorluq və s.

❒ *4. Musiqili-ritmik zəka:* Musiqi ilə bağlı hər şeyə qarşı həssasdırlar. Eşitdikləri musiqidəki melodiyaları, ritmləri çox sürətli bir şəkildə qavrayırlar. Bir musiqi çalınarkən o musiqidə istifadə edilən musiqi alətlərini çox asanlıqla ayırd edə bilirlər. Bu zəkanın yüksək səviyyədə olduğu insanların seçdikləri peşələr: müğənnilik, bəstəkarlıq, musiqi müəllimiliyi və s.

❒ *5. Fiziki-kinestetik zəka:* İdman ilə məşğul olan insanlarda bu zəka növü üstündür. Fiziki gücə həddən artıq önəm verirlər. Əsas peşə seçimləri: rəqqaslıq, idman, yarış hakimliyi və s.

❒ *6. Daxili zəka:* Bu zəka insanın özü ilə bağlı hər şeyi bilməsi deməkdir. Qabiliyyətləri, maraqları, öz daxili potensialı ilə bağlı dərin məlumata sahib insanlardır. Əsas seçdikləri peşələr: iş adamları, liderlər və s.

❒ *7. Sosial zəka:* İnsanlararası ünsiyyətlərdə uğur qazanan şəxslərdir. İnsanların xüsusiyyətlərini asanlıqla qavrayır və ünsiyyət məsələlərinə önəm verirlər. Empatiya hissi qüvvətli olan insanlarda mövcuddur. Belə insanlar əsasən bu peşələri seçirlər: psixoloq, insanlararası ünsiyyətlə bağlı mütəxəssis və s.

❒ *8.Təbiət zəkası:* Təbiətlə bağlı olan məsələlərə maraq hiss edən insanlarda mövcuddur. Heyvanları, bitkiləri, təbii hadisələri araşdırır və onların yaranma səbəblərini təhlil etməyə cəhd edirlər. Seçdikləri əsas peşələr: baytarlıq, əkinçilik və s.

Peşəseçimi məsələləri və xüsusən də uşaqlarda, yeniyetmə və gənclərdə peşəseçimi fikrinin necə inkişaf etməsi ilə bağlı öz düşüncələrini ortaya qoyan müxtəlif nəzəriyyələr haqqında konkret məlumatların verilməsində əsas məqsəd bu nəzəriyyələri təhlil etmək deyildir. Bu qədər qısa məlumatla bu nəzəriyyələri təhlil etmək həqiqətən də mümkün deyildir. Hər şeydən əvvəl hər bir nəzəriyyə öz içində çox mürəkkəbdir. Bəzən qəbul edə biləcəyimiz fikirlərlə yanaşı qəbul edə bilməyəcəyimiz fikirlər də ortaya çıxır. Ancaq

konkret məlumatlara diqqət yetirilməsi və xüsusilə də bu sahədə praktik fəaliyyət göstərən və göstərəcək insanlara bu barədə olan informasiyaların çatdırılması onların bu məsələ ilə bağlı gərəkli bilik əldə etmələrini təmin edir.

Yuxarıda göstərilən misallardan da belə nəticəyə gəlmək mümkündür ki, peşəseçiminə təsir göstərən amillər çox və müxtəlifdir. Bu amillərin hər kəs tərəfindən qəbul edilə biləcək keçərli bir siyahısı hələlik hazırlanmamışdır. Ancaq peşəseçiminin inkişafı gəncin ümumi inkişafının bir parçası olaraq düşünülməlidir.

Bu prosesdə gəncin xarakter xüsusiyyətləri və mənlik şüuru çox önəmli yer tutur. Bundan başqa onun həyat təcrübəsi, yaşadığı mühitin xüsusiyyət və imkanları, mühitlə arasındakı qarşılıqlı təsir və s. də çox önəmlidir.

Bu gün peşə inkişafı və peşəseçiminin önəmli, ancaq mürəkkəb bir proses olduğu açıqdır. Bu vəziyyətdə məktəblərdə və ya məktəbdənkənar tərbiyə müəssisələrində peşəseçiminə psixoloji rəhbərlik xidmətlərindən faydalanaraq gənclərin peşə inkişaflarına və özlərinə ən uyğun peşəni seçmələrinə yardım etmək lazımdır.

## PEŞƏSEÇİMİNƏ PSİXOLOJİ RƏHBƏRLİKDƏ BİLİNMƏSİ VACİB OLAN ƏSAS CƏHƏTLƏR

Ölkələrin inkişafında önəmli rol oynayan insanlara yaradıcı və inkişafa meyililik xüsusiyyətləri qazandırmağı qarşısına məqsəd qoyan çağdaş təhsil anlayışı günümüzdə gənc nəslin öz potensialını maksimum səviyyədə ortaya qoya biləcəyi ən uyğun peşəni seçməsinə önəm verir. Artıq müasir dövrdə insanların hər hansı bir peşə seçməsinin bir anda verilən bir qərar olmadığı və daha çox peşə seçiminin inkişafı prosesində formalaşıb ortaya çıxdığı qəbul edilən bir düşüncədir.

Peşə seçiminin inkişafı prosesi uşaqlıq dövründə bir peşə fikrinin meydana gəlməsindən etibarən gənclik dövründə hər hansı bir peşə sahibi olana qədər keçən inkişaf mərhələlərini əhatə edir. Bu prosesin erkən uşaqlıq çağlarında kiçiklərə yönəldilən "Böyüyəndə nə olacaqsan?" sualı ilə başladığı qəbul edilir. İnsanın daha kiçik yaşlardan başlayaraq özü və peşələr haqqında gəldiyi müəyyən qənaət və fikir ilə mühitin qarşılıqlı təsiri nəticəsində yaranan peşə qərarı peşəseçiminin inkişafı prosesinin önəmli bir mərhələsi hesab edilir.

Günümüzdə peşəseçiminə psixoloji xidmət fəaliyyəti kiçik yaşlardan hər hansı bir peşə fəaliyyəti fikrinin

meydana çıxmağa başlamasından etibarən gənclik dövründə uyğun bir peşə sahibi kimi formalaşanadək olan dövrü əhatə edən və hər mərhələdə peşəseçimi düşüncəsinin inkişafının sağlam bir şəkildə formalaşması üçün həyata keçirilən yardım xidmətləri olaraq qəbul edilir. Bu tərifə görə peşəseçiminə rəhbərlik xidmətləri hər bir insan üçün ömür boyu müraciət edə biləcəyi bir psixoloji yardım xidmətidir. Çünki bu xidmətlər pedaqoji proses müddətində şagirdin özünü və peşələri tanıyaraq, bir çox xüsusiyyəti göz önündə tutaraq etdiyi seçimə istiqamətlənməsi ilə bərabər, eyni zamanda peşəyə və əmək həyatına uyğunlaşmada, seçilən peşə sahəsində səmərəli çalışmada, peşə dəyişdirmədə, yeni bir peşəyə adaptasiyada, pensiyaya çıxmaq və s. kimi hər hansı bir peşə məsələləri ilə bağlı ortaya çıxan problemlərin həllində insanlara yardım məqsədi ilə bütün yaş dövrlərini əhatə edən edən psixoloji xidmətdir.

Peşəseçimi gənc nəslin gələcək həyatlarını qurmalarına, onların uğurlu fəaliyyət və inkişaflarına, həmçinin özünüdərk və özünütəsdiqlərinə təsir edən ən önəmli mərhələlərdən biridir. Bu baxımdan da qeyd edilməlidir ki gənclərin peşəseçimi problemləri ilə bağlı məsələlərə yardım baxımından məktəbdə həyata keçirilən psixoloji rəhbərlik və məsləhət xidmətləri önəmli yer tutur. Hətta bu gün dünyada seçim siyahısındakı peşələrin sayı 50.000-ə çatdığına görə məktəblərdə peşəseçimində psixoloji rəhbərlik və məsləhət xidmətlərinin önəmi daha da artmışdır.

Ölkəmizdə bəzən iş və peşə bir-birinə qarışdırılır. Onu qeyd edək ki, peşə bir insanın gələcək həyatını müəyyən-

ləşdirmək üçün öz istedad və qabiliyyətinə uyğun olaraq seçdiyi, cəmiyyət tərəfindən müəyyən qayda və qanunları olan, müəyyən bir təhsil nəticəsində qazanılan sistemli fəaliyyətdir. İş isə müəyyən bir iş yerində həyata keçirilən fəaliyyətlər qrupudur. Bir insanın peşəsi ola bilər, amma işi olmaya da bilər. Yaxud da bir işin olması peşənin olması demək deyildir. Günümüzdə əsas olan insanın bir peşə sahibi olmasıdır.

Bildiyimiz kimi hər bir insan həyatında bir peşəyə sahib olmağa çalışır və buna ehtiyac hiss edir. Xüsusən də gənc yaşlarında bu ehtiyac daha çox hiss edilir. Bunun üçün də orta məktəbin son siniflərində təhsil alan və universitetə hazırlaşan şagirdlərin istər yaşıdları, istərsə də böyüklər ilə apardıqları söhbətlərdə əsas mövzu peşəseçimi ilə bağlıdır. Bu dövrdə onları narahat edən əsas düşüncələr "Hansı peşəni seçsəm mənim üçün daha yaxşı olar?", "İstədiyim ixtisasa qəbul oluna biləcəyəmmi?", "Universitetə qəbul olunmasam nə edəcəyəm?" kimi suallardır.

Bir məsələ çox maraqlıdır ki, insanın bir işə və yaxud da bir peşəyə sahib olma ehtiyacı haradan ortaya çıxır? İlk öncə ağla gələn və ümumiyyətlə düşünülən səbəb insanın maddi cəhətdən öz ehtiyaclarını təmin etməkdir ki, bu düşüncə təxminən doğrudur. Amma təkcə bu səbəbmi bizi peşəseçiminə istiqamətləndirir? Çünki yalnız səbəb bu isə, o zaman maddi baxımdan zəngin insanların bir peşə sahibi olmaq və hər hansı bir əmək fəaliyyəti ilə məşğul olmaq ehtiyacları olmamalı idi. Bu baxımdan Qərb ölkələrində aparılan bir araşdırma diqqəti cəlb edir. Belə ki, 400 insan

arasında aparılan bu araşdırmada onlara verilən əsas sual belə olmuşdur: "Əgər əlinizə həyatınızı gərəkli şəkildə yaşamanıza imkan verən maddi sərvət keçsə yenə də çalışmaq istəyərdinizmi?" Bu suala aşağıdakı cavablar alınmışdır:

Əmək fəaliyyətimə davam edərəm- 314 nəfər

İşləmərəm- 79 nəfər

Cavab verməkistəməyənlər- 7 nəfər

Cəmi- 400 nəfər

Aparılan araşdırma bu gerçəyi ortaya çıxarmışdır ki, maddi vəziyyəti çox yaxşı olsa belə insanların böyük əksəriyyəti işləmək istəyir. Bu zaman pul qazanmaqdan başqa insanları bu cavabları verməyə təhrik edən digər səbəblərin olduğunu düşünən araştırmacılar bu araşdırmanı daha da dərinləşdirmiş və işləmək istəyən 294 insana "Maddi durumunuz çox yaxşı olduğu halda niyə işləmək istəyərdiniz?" sualı ilə müraciət etmişlər. Aşağıdakı cavablar alınmışdır:

İşləməkdən zövq alıram-27 nəfər

Digər insanlarla ünsiyyətdə oluram- 46 nəfər

Özümü faydalı bir insan kimi hiss edirəm- 97 nəfər

Özümü hörmət sahibi hiss edirəm- 46 nəfər

İşləsəm sağlam olaram- 30 nəfər

Digər- 48 nəfər

Buradan belə nəticəyə gəlmək olar ki, bir peşə sahibi olmaq sadəcə insanların gələcək həyatlarını maddi baxımdan təmin etmək üçün deyil, həm də cəmiyyətdə qəbul edilmək istəyi, özünütəsdiq ehtiyacı, digər insanlarla ünsiyyətdə olmaq və faydalı olmaq arzusundan irəli gəlir.

Hər hansı bir peşə və ixtisas sahibi olmağın təməlində psixo-sosial bəzi cəhətlər vardır. Bilindiyi kimi insanın anadangəlmə qabiliyyətləri, gizli gücləri vardır. Biz həyatımız boyunca bu qabiliyyətlərimizi, gizli güclərimizi ortaya qoymaq, bunlardan istifadə etmək və bu qabiliyyət və istedadları inkişaf etdirməyə çalışırıq. Elə bu baxımdan da bu istəklərimizi təmin edə biləcək əsas ünsür sahib olduğumuz peşəmizdir. Peşəmiz bizə mövcudluğumuzun mənasını anlamaqda kömək edir. İnsan sahib olduğu qabiliyyət və istedadlardan istifadə edərək mənəvi, psixoloji doyum əldə edir, özünütəsdiqləyir. İnsan özünü bir əmək fəaliyyəti ilə məşğul olduğu üçün, yardıcı olduğu üçün də daha dəyərli və önəmli görür. Beləliklə, özünə güvəni və hörməti formalaşır. Bundan başqa cəmiyyət içində hər hansı bir sahədə xidmət göstərmək, faydalı insan olmaq yolu ilə də sosial qəbul və dəyər qazanır. Əmək fəaliyyətləri zamanı biz digər insanlarla ünsiyyətdə olur, müəyyən rol və vəzifələrlə sosial mənliyimizi qazanırıq. Deməli, hər hansı əmək fəaliyyətinin təməlində insanın həm də psixo-sosial ehtiyaclarının təmin edilməsi dayanır.

Peşəseçiminin insanın həyatında önəmli bir mərhələ olduğu fikri elmi zəmində 1980-ci illərdə Amerika Birləşmiş ştatlarında əsaslandırılmışdır və orta ümumtəhsil məktəblərində peşə və ixtisaslar haqqında məlumatlandırma fəaliyyətlərinə dair ilk çalışmalar bu sahədə mütəxəssis Georq Merril tərəfindən həyata keçirilmişdir.

Günümüzdə peşəseçiminə psixoloji rəhbərlik gənclərin müxtəlif peşələri tanımaları, öz xüsusiyyətlərinə uyğun

peşələri seçmələri, seçdikləri peşələrə hazırlanmaları və seçdikləri peşələrə uyğun olaraq özlərini inkişaf etdirmələri baxımından pedaqoji prosesdə məktəblilərə verilən psixoloji yardımlardır.

Təbiidir ki, qəbul imtahanlarında uğur qazanmanın ən önəmli şərtlərindən biri də diqqətlə və məsuliyyətlə ixtisasların seçilməsidir. Məsələn, hər il öz istedad və qabiliyyətinə uyğun bir ixtisası qazana biləcəyi halda yanlış seçim nəticəsində istəmədiyi ixtisasda oxumağa məcbur olan və ya reallığa, düzgün dəyərləndirməyə deyil, daha çox xəyali seçimlərin nəticəsində qəbul olunmayan yüzlərlə gənc vardır.

Qeyd etmək lazımdır ki, peşəseçimi prosesinin çox mürəkkəb bir proses olması və gənclərin peşə seçmək qərarına bir çox müxtəlif amillərin təsir göstərməsi imkanının mövcudluğu baxımından bu məsələ hər zaman diqqət mərkəzində saxlanılmalıdır. Həqiqətən də, pedaqoji prosesdə şagirdlərin müxtəlif peşələrə yönəlmələrini təmin edərkən onların peşələri tanımalarına, seçim etmələrinə və qərar vermələrinə köməklik göstərmək o qədər də asan bir iş deyildir.

Peşəseçiminə psixoloji rəhbərlik, məktəblilərin müxtəlif peşələri tanımaları, öz istedad və qabiliyyətinə uyğun olan peşələri seçmələri, peşələrə hazırlanmaları, seçdikləri peşələrdə irəliləmələri və inkişaf etmələri məqsədilə onlara göstərilən psixoloji köməkdir. Peşəseçiminə psixoloji məsləhət isə yenə də bu məqsədlə həyata keçirilən fərdi və ya qrupla psixoloji məsləhət xidmətləridir.

Bu prosesin uğurla həyata keçirilməsi olduqca məsuliyyət tələb edən bir işdir. Çünki, seçilən peşə və ixtisas insan həyatının üçdə birini əhatə edən bir fəaliyyətdir.

Pedaqoji prosesdə peşəseçiminə psixoloji rəhbərlik və psixoloji məsləhət xidmətləri üç mərhələdə həyata keçirilir:

- ***1. Şagirdləri tanıma.***
- ***2.Peşələrin araşdırılması.***
- ***3. Yeniyetmə və gənclərin fərdi xüsusiyyətləri ilə peşələrin tələb etdiyi xüsusiyyətlər arasında bağlılıq qurmaq.***

Bu mərhələləri qısa olaraq gözdən keçirmək faydalıdır.

### *1. Peşəseçiminə psixoloji rəhbərlikdə şagirdləri tanıma*

Ümumiyyətlə psixoloji rəhbərlik və məsləhətdə şagirdləri tanıma fəaliyyətlərinin əsas məqsədi, onların özlərini hərtərəfli və daha yaxşı tanımalarına yardım etməkdir. Bu cəhət hər zaman göz önündə tutulmalıdır. Çünki özünü hərtərəfli tanıyan bir insan hansı sahədə daha faydalı olacağını müəyyənləşdirə bilər, gələcək fəaliyyəti ilə bağlı doğru qərar verə bilər.

Peşəseçiminə psixoloji rəhbərlik məqsədi ilə şagirdlərin fərdi xüsusiyyət və keyfiyyətlərinin müxtəlif yönlərdən araşdırılmasının vacib olduğuna hər zaman diqqət edilməlidir. Sadəcə bir və ya bir neçə fərdi xüsusiyyət əsas götürülərək gənclərin peşələrə istiqamətləndirilmələri doğru deyil. Məsələn, sadəcə təlim müvəffəqiyyəti, qabiliyyət və

maraqları göz önündə tutularaq müəyyən peşəyə istiqamətləndirilən gənclərin gələcək ixtisaslarında uğur qazanmaları, özlərini məmnun hiss etmələri və özlərini təsdiq etmələri gözlənilməməlidir. Çünki gəncin peşəseçiminə təsir göstərən müxtəlif amillərin olduğu nəzərə alınarsa, peşəyə yönəlmədə bu amillərdən nə qədər çoxuna diqqət edilərsə, nəticənin də bir o qədər uyğun, uğurlu və yerində olacağı elmi araşdırmalarla dəstəklənmişdir.

Gəncin peşəseçiminə təsir göstərən amillər arasında zehni qabiliyyətlər, xüsusi istedad və bacarıqlar, onun sahib olduğu müxtəlif xarakter xüsusiyyətlər və mənlik şüuru, maraqları, təlim uğuru, cinsiyyəti, mühit amilləri, xüsusilə ailənin sosial-iqtisadi səviyyəsi, valideynlərin peşəsi, ailə ənənələri və ayrıca gəncin peşəyə hazırlıq səviyyəsi önəmli amillər olaraq göstərilir.

Peşəseçiminə təsir göstərən amillər haqqında Amerika alimi D.E.Superin hazırladığı siyahı bu mövzu ilə maraqlananlara geniş məlumat verir. Araşdırma nəticələrinə görə hazırlanan və günümüzdə də keçərli olan bu siyahıda peşəseçiminə təsir göstərən amillər altı qrupda toplanmışdır:

❋ ***1. Bioloji amillər:*** İnsanın fiziki xüsusiyyətləri: sağlamlığı, cinsiyyəti, bədən quruluşu, görmə və eşitmə səviyyəsi və s.

❋ ***2. Sosial-psixoloji amillər:*** Ailədaxili münasibətləri, bağlı olduğu dost qrupunun tələbləri və gəncə psixoloji təsiri, ailənin sosial səviyyəsi, yaxın ünsiyyətin qurulduğu digər insanlar.

❋ *3. Fərdi psixoloji amillər:* Gəncin ehtiyacları, emosiya və hissləri, xarakter xüsusiyyətləri, dəyərləri, maraq, istedad və qabiliyyətləri, temperamenti və s.

❋ *4. İqtisadi amillər:* Ailənin iqtisadi səviyyəsi, mühitin ya da ölkənin ümumi iqtisadi vəziyyəti, yaşadığı ölkədə texnologiyanın inkişafı, bunların cəmiyyətin insan-gücü ehtiyacına təsirləri.

❋ *5. Siyasi amillər:* Mövcud siyasi quruluşlarda peşəyə yiyələnmə vəziyyəti, iş tapma vəziyyəti, müxtəlif təhsil, ixtisasartırma və təkmilləşmə təhsili fürsətləri və s.

❋ *6. Şansla bağlı amillər:* Təbii fəlakətlər, peşələrə və iş yerlərinə təsir göstərən gözlənilməyən hadisələr, daxili və xarici müharibələr və s. (5,65)

Gəncin peşəseçiminə təsir göstərən amillərin çox və mürəkkəb olması pedaqoji prosesdə peşəseçiminə psixoloji rəhbərlik işlərində şagirdləri tanıma fəaliyyətlərinin əhatə dairəsini də genişləndirir. Buna görə də əsas prinsip olaraq, psixoloji rəhbərlik və məsləhət xidmətlərinin bütün cəhətləri üçün önəmli görülən şagirdləri tanıma və onlara özlərini tanıtdırma fəaliyyətlərinin əhatəli və geniş şəkildə aparılması vacibdir.

Peşəseçimində gənclərə yardım edərkən onlar haqqında hansı məlumatların əsas götürülməsinin zəruriliyi ilə bağlı aparılan araşdırmalar və ortaya qoyulan fikirlər sadəcə Amerika alimi D.E.Superin fikirləri və araştırmaları olmamışdır. Bu məsələnin çağdaş dünyamızda önəmini nəzərə alan bir çox araşdırmaçılar bir çox fikirlər söyləmiş və siyahılar hazırlamışlar. Gəncin hərtərəfli tanınmasının vacib

olmasını əsas prinsip olaraq qeyd edən digər Amerika alimləri- A.Humpheris və həmfikirlərinin hazırladığı aşağıdakı siyahı digər bir nümunə olaraq təhlil edilə bilər. Buna görə, peşəseçiminə psixoloji rəhbərlik xidmətlərində yeniyetmə və gəncin peşəseçiminə yardım edərkən onlar haqqında aşağıdakı məlumatların əsas götürülməsi vacibdir.

❒ ***1. Yeniyetmə və gəncin fiziki xüsusiyyətləri***: Yeniyetmə və gəncin fiziki görünüşü, səs tonu və danışıq tərzi, ümumi sağlamlığı və enerji səviyyəsi, fiziki qüsurları, yaşı, boyu, çəkisi və s.

❒ ***2. Xarakter xüsusiyyətləri***: Motivləri, temperament tipi, məqsəd və dəyərləri, emosional tarazlıq və yetkinlik səviyyəsi, mənlik şüuru, sosial inkişafı, başqaları ilə ünsiyyəti, başqalarına təsir göstərmə səviyyəsi, olduğu sosial qrupda üstünlüyü və bağlılıq səviyyəsi və s.

❒ ***3. Ümumi və xüsusi intellektual qabiliyyətləri.***

❒ ***4.Maraqları.***

❒ ***5.Qabiliyyət və istedadları.***

❒ ***6.Məktəb və məktəbdən kənar həyatı***. Təlim uğuru, təlimdə müvəffəqiyyət səviyyəsi, keçirilən müxtəlif tədbirlərdə iştirakı, müvəqqəti iş təcrübəsi və uğuru, xüsusi bacarıqları, hobbiləri, ailə içində və kənarda başqaları ilə münasibətləri, məktəbdənkənar fəaliyyətlərdə iştirakı və s.

❒ ***7. Ailə vəziyyəti və ənənələri***. Ailənin sosial və iqtisadi səviyyəsi, maddi imkanı, ailənin mədəni səviyyəsi, uşağa qarşı münasibəti və marağı, ailədaxili qarşılıqlı münasibətlər və s. (5,66)

Burada bir cəhətə diqqət etmək vacibdir ki, yuxarıda da qeyd etdiyimiz kimi seçilən peşə ilə maraq və qabiliyyətlərin uyuşması gərəklidir. İnsan hər hansı bir fəaliyyət sahəsində uyğun qabiliyyətlərə yiyələnmək üçün gərəkli olan təbii imkanlarla doğulur. Bu təbii imkanlar mühitin də həmin imkanları işləməsi ilə qabiliyyətlərə çevrilir. Əgər mühit bu imkanları üzə çıxarıb gərəkli şəkildə işləməzsə onda həmin imkanlar qabiliyyətə çevrilməz sadəcə "ölü imkanlar" olaraq qalar. Ümumiyyətlə, qabiliyyətlər genetik xüsusiyyətlərə sosial təsirlər nəticəsində qazanılan bilik, bacarıq və vərdişlərin də qoşulması ilə insanın psixi xassəsini təşkil edir. Bunun üçün də qabiliyyətləri şagirdlərin təlim uğuru ilə qarışdırmaq olmaz. Belə ki, təlim uğuru bizə qabiliyyətlər haqqında məlumat verə bilər, lakin qabiliyyət ilə eynilik təşkil etməz.

Şagirdlərin sahib olduqları qabiliyyətlər haqqında məlumatlı olmaları gələcək hansı təhsil pillələrini, hansı peşələri seçəcəklərinə qərar verməkdə onlara yardım edə bilər. Məsələn, riyazi qabiliyyəti olmayan bir şagirdin mühəndislik sahəsində uğur qazanması çox çətindir və hətta mümkün deyildir. Müasir dövrümüzdə yeniyetmə və gəncləri bir peşəyə və ya təhsilin yuxarı pillələrinə hazırlayan mütəxəssislər onların ümumi və xüsusi qabiliyyətlərini araşdırıb təhlil etmək üçün çox önəmli və vacib fəaliyyətlər həyata keçirməlidirlər. Məsələn, universitet təhsili üçün tələbənin cisimlər, hadisələr və anlayışlar arasındakı əlaqə və asılılığı görə bilmə, məntiqi düşünmə və mühakimə qabiliyyətlərindən meydana gələn və "Akademik qabiliyyət"

adlandırılan ümumi bir gücü olmalıdır. Özlərinin zəif və güclü cəhətlərini bilərək və özü haqqında bu məlumatlardan yola çıxaraq yeniyetmə və gənclər gələcək seçimlərini daha real olaraq edə bilərlər.

Ümumi və xüsusi qabiliyyətlərdən bəziləri aşağıdakılardır:

1. Nitq qabiliyyəti:

a. Nitqin axıcılığı. Zəngin bir söz ehtiyatına və bundan istifadə edə bilmə gücünə sahib olmaq, hiss və düşüncələrini müxtəlif sözlərdən istifadə edərək təsirli bir şəkildə ifadə edə bilmək, axıcı bir üslubda danışa bilmək və yaza bilmək, orijinal və bədii dəyəri olan yazılar yaza bilmək.

b. Məntiqi nitq qabiliyyəti. Sözlər və ya ifadələr arasındakı bənzərlik və fərqləri görə bilmək, oxuduğunu başa düşə bilmək, düşüncələrini açıq və anlaşıqlı bir şəkildə digər insanlara çatdırmaq qabiliyyəti.

2. Riyazi qabiliyyət:

a. Hesablama qabiliyyəti. Rəqəmlərlə dörd əməliyyatın keçərli olduğu hesablamaları tez və doğru bir şəkildə həyata keçirmək, hər hansı bir hesablamadakı səhvi asanlıqla tapmaq.

b. Rəqəmlərdən məntiqi şəkildə istifadə etmək. Riyazi anlayış və qanunlardan istifadə edərək problemləri həll edə bilmək, rəqəmlər arasındakı əlaqələri görə bilmək.

3. Şəkil-fəza qabiliyyəti:

a. Şəkil qavrayışı: Cisimlərin, rəsmlərin və ya geometrik şəkillərin detallarını qavrama, cisimlər, rəsimlər və

ya şəkillər arasında kölgə, məsafə, uzunluq və s. xüsusiyyətlər baxımından fərqləri görə bilmək.

b. Fəza əlaqələrini görə bilmək: açıq halda verilmiş bir cismin qapalı şəklini görə bilmək və ya tərsini həyata keçirmək.

1. Rəng qavrayışı:

Rəngləri tanımaq, rənglərdəki bənzərlikləri və ya fərqləri qavramaq, eyni rəngdə olan iki cismdəki ton fərqini görə bilmək.

3. Hafizə:

Sözləri, rəqəmləri, simvolları sürətli şəkildə hafizəyə yerləşdirmək və uzun zaman müddətində hafizədə saxlamaq.

4. Detalları ilə qavrama:

Ətraf mühitdəki qıcıqlandırıcıları və bu qıcıqlandırıcılar arsındakı fərqi bütün kiçik detallarına da diqqət yetirərək sürətli və düzgün formada dərk etmək.

5. Mexaniki qabiliyyət:

Bir alət və ya texnikanın müxtəlif parçaları arasındakı əlaqəni, bir alətin funksiyalarının, işləməsinin təməl prinsipini görə bilmək, təmir edə bilmək, bir sxemə görə bir alət hazırlaya bilmək.

6. Əl qabiliyyəti:

Əlləri və qolları asanlıqla və mükəmməl bir şəkildə hərəkət etdirmək, əşyaları qaldırmaq, yerləşdirmək kimi hərəkətləri sürətli və düzgün bir şəkildə həyata keçirmək.

7. Barmaq bacarığı:

Barmaqlardan düzgün və sürətli bir şəkildə istifadə edərək kiçik cisimlərlə çalışmaq və çox incə işləri həyata keçirmək.

8. Əl-göz işbirliyi:

Əl və gözü birbiri ilə uyum halında və sürətli bir şəkildə istifadə etmək, sapı iynədən keçirmək və buna bənzər digər işləri tez və düzgün bir şəkildə həyata keçirmək.

Yeniyetmə və gənclər yuxarıda sözü gedən qabiliyyətlərdən hansılarına sahib olduqlarını bilməlidirlər. Ancaq bir cəhətə də diqqət etmək lazımdır ki, sadəcə qabiliyyətləri bilmək peşəyə istiqamətlənməkdə yetərli deyildir. Digər bir önəmli cəhət maraqların bilinməsidir.

Bildiyimiz kimi maraq insanın həyatın müəyyən bir sahəsinə, müəyyən bir fəaliyyətə az və ya çox yönəlməsində ifadə olunan fərdi psixi xüsusiyyətdir. Maraqların insanın həyat və fəaliyyətində rolu olduqca böyükdür. İnsan sahib olduğu peşəyə qarşı maraq hiss etdikdə həmin peşə sahəsində yüksək uğur qazanır. Əksinə, peşəsinə qarşı maraq olmadıqda həmin işlər cansıxıcı olur, insanın diqqətini cəlb etmir, onda xüsusi narahatlıq hissi yaradır və insan özünü yetərsiz hiss edir. Bütün bunlar da insanın özünüqiymətləndirməsinə mənfi təsir göstərir.

Maraq yeniyetmə və gənclərdə gələcəkdə sahib olmağı düşündükləri peşəyə daha artıq və gərgin diqqət yetirmələrini təmin edir. Elə bunun nəticəsində də artıq sahib olacağı peşə ilə bağlı gərəkli məlumatlar əldə etməyə xüsusi səy göstərir, peşə üçün lazım olan biliklərə, bacarıq və vərdişlərə yiyələnməyə can atır. Amma burada əsas olan

yeniyetmə və gənclərin qabiliyyəti ilə **maraqların üst-üstə** düşmələrini anlamalarına yardım etməkdən **ibarətdir** ki, bunu da məktəb psixologları yerinə yetirməlidirlər.

Məktəb psixologları yeniyetmə və **gənclərin boş** zamanlarda hansı fəaliyyətlərlə məşğul olmalarına **baxaraq** onların maraqları haqqında müəyyən bir fikirə gələ **bilərlər**.

Əsas maraq sahələri aşağıdakılardır:

1. Təbiət elmləri: Fizika, kimya, biologiya kimi elmlərin mövzularını meydana gətirən hadisələri araşdırmaq marağının olması.

2. Sosial elmləri: Sosialogiya, antropologiya, psixologiya, tarix kimi elmlərlə maraqlanmaq.

3. Canlı varlıq: Heyvan və bitkilərin həyatını araşdırmaqdan, onları böyüdüb artırmaqdan zövq almaq.

4.Mexanika: Müxtəlif alət və maşınları araşdırmaq, təmir etmək, işlətmək, alət və maşın hazırlamağa maraq göstərmək.

5. Təlqin: Başqalarına düşüncələri təlqin etmək, müəyyən bir məqsədi həyata keçirmək üçün başqalarına təsir göstərməklə maraqlanmaq.

6. Ticarət: Alqı-satqı işləri ilə məşğul olmağa, ticarət yolu ilə qazanc əldə etməyə, bir malı müştəriyə tanıdıb satmaqla maraqlanmaq.

7. İncəsənət: İncəsənətin hər hansı bir növü ilə maraqlanmaq. Hər janrdan olan ədəbi əsərləri mütaliəyə, bu əsərləri təhlil, tənqid etməyə, belə əsərlər yazmağa maraq göstərmək. Bir musiqi aləti çalmağa, musiqi dinləmək və

bəstələməyə maraq hiss etmək. Rəsm əsərlərinə maraq göstərmək, rəsm çəkməklə maraqlanmaq və s.

9. Sosial yardım: Xəstə, yoxsul və əlil insanlara yardım etmək və onların problemlərini aradan qaldırmağa maraq göstərmək.

Yeniyetmə və gənclərin özlərinin qabiliyyət və maraqları haqqında məlumatlı olması onların hansı yola istiqamətlənəcəklərini göstərir. Ya da başqa bir sözlə hansı peşələri seçəcəyini göstərir. Məsələn, mexaniki qabiliyyəti olmayan birisinin mühəndis olmağa can atması mənasızdır. Ancaq sadəcə mexaniki qabiliyyətin olması da mühəndislik üçün yetərli deyil. Bu səbəblə maraq və qabiliyyətləri uyğun bir şəkildə dəyərləndirmək çox önəmlidir.

Bir cəhətə diqqət etmək lazımdır ki, yuxarıda qeyd edilən maraqların da qabiliyyətlərlə birlikdə bilinməsi yetərli deyildir. Çünki peşə seçimi sadəcə psixoloji xüsusiyyətlərin təsiri ilə deyil, sosial və iqtisadi şərtlərlə də əlaqədardır.

Yeniyetmə və gəncləri peşəseçiminə istiqamətləndirmədə onlar haqqında məlumat toplamaq işinə xüsusi diqqət yetirilməlidir. Bu zaman psixoloji testlərdən, avtobioqrafik metoddan, müşahidə metodundan və məlumat toplamaq üçün digər səmərəli üsullarından istifadə etmək lazımdır. Bu məlumatlar məktəb psixoloqu tərəfindən yeniyetmə və gənclərin fərdi psixoloji qovluqlarında yerləşdirilir. Əgər məktəbdə kompüterlərdən geniş istifadə edilirsə bu məlumatlar CD-yə də yazılaraq saxlanıla bilər.

## *2. Peşəseçiminə psixoloji rəhbərlikdə peşələrin araşdırılması*

Peşəseçiminə rəhbərlik xidmətlərinin ilk mərhələsi yeniyetmə və gənclərin fərdi psixoloji xüsusiyyətlərini tanımaq, ikinci mərhələ isə peşələrin araşdırılması və məlumat əldə edilməsi və sonra da bu məlumatları təhlil edərək uyğun bir qərar verilməsi mərhələsidir. Elə bunun üçün də ikinci mərhələdə yeniyetmə və gənclərə peşələləri tanıması üçün yardım etmək lazımdır. Çünki şagirdlər bu dövrdə özlərini nə qədər də yaxşı tanısalar da əgər peşələr haqqında doğru və yetərli məlumata sahib olmasalar uyğun bir peşəseçimi həyata keçirə bilməzlər.

Peşəseçiminə psixoloji rəhbərlik məqsədi ilə peşələrin araşdırılması və peşələr haqqında məlumatların gənclərə verilməsi olduqca əhatəli və müxtəlif üsullardan istifadəni zəruri edən davamlı bir fəaliyyətdir. Sayısının çox olması səbəbindən peşələrin araşdırılmasında bir çox çətinliklər ortaya çıxır. Bir cəhəti də qeyd etmək lazımdır ki, xüsusən də peşələr üçün vacib olan istedad, qabiliyyət və xarakter xüsusiyyətlərinin nələr olduğu açıq şəkildə bilinmir.

Bəs bir peşə haqqında hansı istiqamətdə məlumat toplamaq lazımdır? Ümumiyyətlə, peşələrin araşdırılmasında istifadə edilməsi nəzərdə tutulan və mütəxəssislər tərəfindən hazırlanan çox sayda araşdırma siyahıları mövcuddur. Hər məktəb, ya da digər qurumlar öz ehtiyac və tələblərinə uyğun özü üçün bir peşə araşdırma planı

hazırlaya bilər. Bir peşə araşdırma planı hazırlamağa yardım etmək məqsədilə A.Humpheris və həmkarlarının apardıqları elmi tədqiqatlardan faydalanaraq peşələrin araşdırılmasında cavablandırılması vacib olan sualları aşağıdakı kimi sıralaya bilərik:

- 1. Peşənin əsasını meydana gətirən işin xüsusiyyətləri nələrdir? (peşənin yerinə yetirilməsi ilə bağlı əsas fəaliyyətlər, məsuliyyətlər, səlahiyyət və vəzifələr).
- 2. Peşə hansı qabiliyyətləri tələb edir? (peşə üçün gərəkli olan ümumi və xüsusi qabiliyyyətlər).
- 3. Peşə üçün lazım olan təhsil səviyyəsinin xüsusiyyətləri nələrdir? (təhsilin müddəti, təhsil haqqı, xüsusi hazırlığın lazım olub olmaması).
- 4. Peşəyə başlamaq üçün lazım olan şərtlər nələrdir? (işə girişin imtahanla olub olmadığı, imtahanın necə və kimlər tərəfindən götürüləcəyi, sənəd qəbulunun necə aparılacağı və s.)
- 5. Peşəyə giriş üçün müəyyən bir məhdudiyyət vardırmı? (milliyyət, din, dil, irq kimi məhdudiyyətlər, fiziki xüsusiyyətlər baxımndan məhdudiyyətlər və s.)
- 6. Çalışma şərtləri nələrdir? (günlük çalışma saatları, mövsümlərə görə işin ağırlaşması, iş riskləri, bu riskləri aşma ilə bağlı maddi imkan və s.)
- 7. Seçilən peşədə kadr ehtiyacı və kadr yerləşdirmə istiqaməti nədir? (peşənin önəmi, bu önəmin artıb artmayacağı, cəmiyyətin bu peşəyə olan ehtiyacı və lazım olan insan gücü və s.)

▪ 8. Seçilən peşənin gəliri necədir? (maaşı, sığortası və pensiya imkanları nələrdir, peşədə yüksəlmə, əlaqəsi olan digər iş və peşələrə keçmə imkanları vardırmı? və s.)

▪ 9. Seçilən peşə ömür boyu davam etmə xüsusiyyətə sahibdirmi? (peşənin gənc üçün davamlı bir iş xüsusiyyətinə sahib olub-olmaması və s.) (5,71)

Psixoloji məsləhət və rəhbərlik fəaliyyətlərində ehtiyaca və xidmət göstərən işçi sayısına görə peşə araşdırması ilə bağlı yuxarıda qeyd edilən suallar daha da artırıla biləcəyi kimi daha da konkretləşdirilə bilər. Digər bir tərəfdən yenə şəraitə görə bir peşə üçün bu araşdırmanın aparılmadığı zamanlarda bir-birinə yaxın peşələr bir qrupda qruplaşdırılıb, lazım gələrsə alt qruplara ayrılıb araşdırma qruplara görə aparıla bilər. Məsələn, sosial elmlər, dəqiq elmlər, texniki elmlər, tibb elmləri kimi peşələr qruplaşdırıla bilər ya da bunların alt qrupları meydana gətirilə bilər.

Beləliklə, bu suallar vasitəsilə əvvəl seçməyi düşündüyü hər hansı bir peşə haqqında məlumatı olmayan məktəblilərin peşələri yetərli səviyyədə tanıması, münasib olan və münasib olmayan xüsusiyytələri üzərində düşünməsi təmin edilir.

Ancaq burada önəmli olan bir cəhət yeniyetmə və gənclərə gərəkli olan bu məlumatların haradan toplanılmasıdır. Bunun üçün aşağıdakı mənbələrə müraciət etmək mümkündür.

1. Peşələrlə haqqında məlumatların yer aldığı kataloq, kitab, jurnal, broşür və s. materiallar.

2. İstehsalat sahələrinə və müəssisələrə ziyarətlər, müşahidələr və təhlillər.

3. Peşə sahibləri ilə görüşlər.

4. Qısa müddətli əmək fəaliyyəti (yarım günlük və ya həftə sonunda uyğun iş yerində çalışmaq)

5. Şagirdlərin könüllü olaraq məktəb psixoloqunun və ya sinif rəhbərinin də göstərişi ilə "peşələri araşdırma qrupları" meydana gətirib araşdırma aparmaq.

6. Peşəseçimi ilə bağlı seminarlar və s.

Bu yollar məktəbin və mühitin imkanlarına, şagirdlərin ehtiyac və istəklərinə uyğun olaraq müəyyənləşdirilə bilər. Peşələr haqqında məlumat toplamaq üçün birbaşa olaraq şagirdlərə vəzifələr və tapşırıqlar verilməsi daha faydalıdır.

Şagirdlərə müxtəlif peşələr haqqında məlumat verilməsində əsas məqsəd aşağıdakılardan ibarətdir:

1. Hər bir şagirdə maraqlandığı və yönəlməyi düşündüyü peşənin ona məlum olmayan xüsusiyyətləri haqqında məlumat vermək

2. Şagirdlərə xəbərdar olmadıqları, haqqında yanlış və ya az informasiyaları olduğu peşələri tanıtmaq, beləliklə bu sahədə biliyini genişləndirib daha zəngin bir seçim imkanları verərək uyğun seçim etməsini təmin etmək.

3. Cəmiyyət üçün faydalı olan, yeniyetmə və gənclərin özlərini təsdiq etmələrinə imkan verən peşənin seçilməsinin faydaları haqqında məlumat vermək.

Bəzən yeniyetmə və gənclərin bir sıra yanlış düşüncələri onların düzgün seçim etmələrinə mane olur. Bu yanlış düşüncələr əsasən aşağıdakılardan ibarətdir:

• Dəqiq və təbiət elmləri sahəsində uğur qazanan şagirdlər humanitar elmlər sahəsində uğurlu olanlardan daha üstündür.

• Bir peşənin cəmiyyətdə yüksək statusa sahib olması onun maddi imkanlarının yüksək olmasına bağlıdır.

• Orta məktəbdə humanitar elmlər sahəsinə yönələn şagirdlərin tənbəl olmaları düşüncəsi.

• Dostlarından ayrılmamaq üçün onların seçdiyi ixtisasa yönəlmək.

• Əgər bir peşəni daha çox qarşı cinsin nümayəndələri seçirsə, o peşəni seçməmək lazımdır düşüncəsi.

• Ali məktəb təhsili almasam həyatda uğur qazanmamış bir insan olaraq qəbul ediləcəm fikri.

• Giriş balı aşağı olan ixtisasları seçmək tənbəl və faydasız olmaq mənasını daşıyır düşüncəsi.

• Bir insan olaraq dəyərim seçəcəyim peşəyə bağlıdır fikri.

• Peşə seçərkən ailəmin məsləhətinə qulaq assam o zaman istəmədiyim bir peşəyə istiqamətlənərəm.

Hazırda yeniyetmə və gənclərin öz istedad və qabiliyyətlərinə uyğun peşələrə yönəlməsində istər Avropa, istərsə də Amerika məktəblərində bir səmərəli yoldan da istifadə edilir. Belə ki, məktəb kitabxanalarında müxtəlif peşələr haqqında müəyyən ədəbiyyat mövcuddur ki, peşəseçimi mərhələsində olan hər bir yeniyetmə və gənc bu ədəbiyyatı oxumağa yönləndirilir. Beləliklə də, onlar mövcud peşələr və onların xüsusiyyətləri haqqında gərəkli məlumata sahib

olurlar. Təbiidir ki, peşələr haqqında araşdırma aparan və yetərli səviyyədə məlumatlı olan yeniyetmə və gənclərin bu sahədə uğur qazanmaq şansı daha böyükdür.

### *3. Yeniyetmə və gənclərin fərdi xüsusiyyətləri ilə peşələrin tələb etdiyi xüsusiyyətlər arasında bağlılıq*

Bu mərhələ yeniyetmə və gənclərin fərdi xüsusiyyətlər ilə peşələrin tələb etdiyi keyfiyyətlər arasında bir bağlılıq quraraq və beləlliklə də gəncə uyğun olan peşələri ortaya çıxarmaq, konkret olaraq bir seçim etmə və qərar vermə prosesidir. Peşəseçiminə psixoloji rəhbərlik məqsədilə də olsa seçim etmək və qərar vermək işində hüquq və məsuliyyətin yeniyetmə və gəncə verilməsinin vacib olduğu hər zaman diqqət mərkəzində saxlanılmalıdır. Yəni, gərəkli məlumatlar yeniyetmə gənclərə çatdırılmaqla yanaşı son qərarı onların özlərinin verməlırinə şərait yaratmaq çox önəmli məsələdir.

Peşəseçimi işi uzun bir zaman içərisində meydana gələn bir prosesdir. İnsanın davamlı olaraq formalaşan, inkişaf edən və müəyyən bir ölçüdə dəyişən fərdi xarakterik xüsusiyyətləri, digər tərəfdən isə tez-tez dəyişən və yeni keyfiyyətlər qazanan peşələrin xüsusiyyətləri bu ikisi arasında əlaqə və bağlılıq qurmağı çətinləşdirir. Xüsusilə yeniyetmənin və gəncin xarakter xüsusiyyətlərinin davamlı olaraq inkişaf etməsi peşəseçimi işinə hansı təhsil və yaş səviyyəsində qərar verilməsinin vacib olması da müəyyən çətinliklər yaradır. Deməli, buradan belə bir nəticə çıxarmaq

mümkündür ki, peşəseçimi və qərar vermə mərhələsi yeniyetmə və gəncin psixoloji köməyə ehtiyacının olduğu ən önəmli mərhələlərdən biridir.

Özü ilə peşələr arasında bir bağlılıq, əlaqə və uyğunluq qurmağa çalışarkən yeniyetmə və gəncə göstərilən psixoloji köməkdə peşəseçiminə psixoloji rəhbərlik fəaliyyəti böyük önəm daşıyır. Peşəseçimində psixoloji məsləhətin məqsədi psixoloji məsləhət prinsiplərini göz önündə tutaraq fərdi və ya kiçik qruplar halında gənclərlə üz-üzə gəlib, onların peşəseçimi ilə bağlı problemlərini aradan qaldırmalarına kömək etməkdir. Ancaq bu köməyin təsirli olması daha çox məktəblilərə və peşələrə aid lazımi məlumatların öncədən hazırlanmasına çox bağlıdır. Ona görə də hər hansı bir peşə, onun xüsusiyyətləri, onun insanlardan tələb etdiyi keyfiyyətlər haqqında öncədən gərəkli və geniş məlumat toplanılmalıdır.

Mövcud həyat təcrübəsinin səviyyəsi nə olursa olsun, psixoloji məsləhət yardımı təmin edilmiş olsa belə, heç bir yeniyetmə və gəncin çox qısa bir zamanda seçəcəyi peşəylə bağlı bir qərar verməsi düşünülməməlidir. Yəni məktəb psixoloqları peşəseçimi ilə bağlı yeniyetmə və gənclərə yardım edərkən çox qısa müddət ərzində onların gələcəkdə sahib olacaqları peşələri konkret olaraq müəyyənləşdirmələri gözlənilməməlidir. Təbiidir ki, bunun üçün müəyyən müddətin keçməsi lazımdır.

Peşəseçimi məqsədilə həyata keçirilən psixoloji məsləhətin hər bir yeniyetmə və gənc üçün açıq və davamlı olması lazımdır. Digər tərəfdən, yeniyetmə və gəncin fərdi

xüsusiyyətləri ilə bəzi peşələlərin tələb etdiyi xüsusiyyətlərin üst-üstə düşməsi gözlənilməməlidir. Bu xüsusiyyətlərdə bənzərliyin ola biləcəyi bir çox peşə vardır. Bu zaman qərar vermə işi çətinləşdiyindən məktəblilər zamana ehtiyac hiss edə bilər.

Bəzən məktəblilərin peşəseçimi ilə bağlı müəyyən bir qərar vermələri daha çox zaman tələb edə bilər. Buna görə də məktəblərdə yeniyetmə və gənclərin peşəseçimi problemləri ilə bağlı olaraq həyata keçirilən psixoloji məsləhət çalışmalarına daha geniş yer verilməlidir. Ancaq bu şəkildə, şagirdlərin öz fərdi xüsusiyyətlərini daha yaxşı tanımaları və özlərinə uyğun vəziyyətləri daha yaxşı müəyyənləşdirə bilmələrinə köməklik göstərilə bilər. Ayrıca, peşəseçiminə psixoloji rəhbərlik və məsləhət xidmətləri ilə bağlı məktəbdə peşəseçiminə maraq göstərən şagirdlərə kömək etməklə yanaşı digər şagirdlərdə də peşəseçiminə qarşı maraq oyatmağa çalışmaq lazımdır.

Burada bir cəhətə də diqqət yetirmək lazımdır ki, son zamanlarda mütəxəsislər tərəfindən aparılan araşdırmalarda yeniyetmə və gənclərin peşəseçimi məsələsində onların daha çox öz istək, arzu, istedad və qabiliyyətləri ilə peşələrin tələb etdiyi xüsusiyyətlər arasında mütənasibliyə daha çox diqqət yetirilir. Bu zaman bir reallıq və peşəseçiminin son nəticəsinə ciddi təsir göstərə biləcək bir fakta diqqət yetirmək çox zaman unudulur ki, bu da ölkənin sahib olduğu sosial-iqtisadi vəziyyətin nəzərə alınmamasıdır. Aparılan araşdırmalar yeniyetmə və gənclərin ölkədə daha çox tələb olunan, ehtiyacın hiss edildiyi peşə və ixtisaslar mövzu-

sunda yetərli səviyyədə bilik və məlumata sahib olmadığını göstərir. Bu baxımdan da peşəseçiminə qərar vermə mərhələsində olan yeniyetmə və gənclərə istər valideynlər, istər pedaqoqlar, istərsə də psixoloqlar gərəkli yardımı göstərməli, onlara ölkənin ehtiyaclarını da nəzərə almağı məsləhət görməli, onları bu mövzuda məlumatlandırmalıdırlar.

Bundan başqa məktəblərdə yeniyetmə və gənclərin sahib olduğu xüsusiyyətləri müəyyənləşdirmək məqsədi ilə xüsusi testlərin tətbiqi, müşahidələrin aparılması da faydalıdır. Digər bir tərəfdən peşələrlə bağlı olan bəzi xüsusiyyətlərin yeniyetmə və gənclər tərəfindən bilinməsinin vacib olduğu cəhətlər hökmən vardır. Bu baxımdan məktəblərdə təşkil edilən konfrans və toplantılarda peşələr haqqında gərəkli məlumatların verilməsi də xüsusi önəm daşıyır.

## PEŞƏSEÇİMİ PROSESİNDƏ SİSTEMLİLİK

Çox təəssüf ki, bir çox hallarda peşəseçimi daha çox istər valideynləri, istər yeniyetmə və gəncləri, istərsə də pedaqoq və psixoloqları son mərhələdə, yəni artıq məktəbi bitirmə mərhələsində maraqlandırır. Əgər peşəseçimi prosesinin mərhələli bir proses olduğunu düşünsək o zaman bu işə istər professional, istərsə də qeyri-professional, sadəcə yardım məqsədilə başdan deyil haradasa sona yaxın başlanıldığını qeyd etsək yanılmarıq. Təbiidir ki, hər bir insanın önəmli seçim mərhələsi olan peşəseçimi mərhələsinin uğurunu təmin etmək üçün bu prosesi insanın psixoloji, fizioloji inkişafına bağlı olan bir sistem olaraq düşünmək və ilk başdan bu prosesi araşdırmaq çox vacibdir. İnsanların peşə seçimi müəyyən bir müddət içərisində həyat keçir. Yəni peşə seçimi ani bir qərar deyil. Məktəbəqədər dövrdə uşaq ətrafındakı böyüklərin bir iş sahibi olduğunu görür və bunun nəticəsində onda bəzi peşələrə maraq yaranır. Yeniyetməlik dövrünə qədər maraq hiss etdiyi bir peşəyə meyl edən yeniyetmə bu kritik mərhələnin sonlarına yaxın peşəseçimi ilə bağlı qərarını verir. Hər hansı bir peşənin seçilməsinə qərar vermədən əvvəlki dövrlərdə maraq döğuran peşələr haqqında bir araşdırma aparmaq və əgər lazım gələrsə həmin peşə sahibləri ilə görüşlər təşkil

etmək yeniyetmənin faydalı bir peşə seçməsinə imkan yardır. Mütəxəssislər tərəfindən yeddinci sinif şagirdləri arasında aparılmış bir sorğu nəticəsində onların peşə seçimi ilə bağlı qərarları belə olmuşdur: şagirdlərin 50%-i qəribə də olsa həkim, 20%-i müəllim, 15%-i hərbiçi olmaq istədiyini qeyd etmişlər. Qalan 15%-i isə real olmayan seçimlər (kosmonavt kimi) etmişlər. Anket sorğusunda iştirak edən şagirdlərdən nə üçün qeyd etdikləri peşələrə üstünlük verdikləri soruşulduqda isə onlar bu seçimi bir o qədər də yetərli səviyyədə açıqlaya bilməmişlər. Çünki şagirdlərdən çoxu həkim, müəllim və hərbiçi olmaq üçün hansı təhsil səviyyəsindən keçmənin gərəkli olduğunu və bu peşələrin tələb etdiyi xüsusiyyətləri, bu peşələrdə fəaliyyət imkanlarını, hətta maddi baxımdan imkanlarını belə bilməmişlər. İstər məktəbəqədər, istər kiçik məktəb yaşı, istər yeniyetməlik, istərsə də gənclik yaşı dövründə bu proses inkişaf xüsusiyyətləri də nəzərə alınaraq araşdırılmalıdır.

Məktəbəqədər yaş dövründə uşaqlarda peşə anlayışı ilkin düşüncə xarakteri daşıyır. Bu dövrdə istiqamətləndirmə uşaqlara müxtəlif peşə sahələri ilə bağlı oyunlara yönləndirmə və bu zaman onların həmin peşə ilə bağlı müəyyən qədər ilkin məlumata yiyələnmələrini təmin etmək çox vacibdir. Məktəbəqədər yaş dövründə uşaqların əsas fəaliyyəti olan oyunun peşəseçiminin inkişafı mərhələsində önəmli bir vasitə olaraq istifadə edilməsi vacibdir. Bu yaş dövründə müxtəlif peşələrlə bağlı rollar oyun içində öyrənilir. Bu dövrdə müxtəlif oyunlar içərisində peşələrlə bağlı rollar canlandırılırkən uşağa müstəqillik və özünə inam hissinin

aşılanması, eyni zamanda peşə sahələrinə bağlı real bir düşüncə qazandırılması da təməl məqsədlərdən biri olmalıdır. Bu prosesdə həm də mütəxəsislər onların mövcud maraq və meylləri ilə bərabər istedad və qabiliyyətlərini də üzə çıxarmaq imkanına sahibdirlər. Bu zaman uşaq ilkin xarakter daşısa da özü barəsində, bacarıq və qabiliyyətləri haqqında müəyyən məlumat əldə edir, özünü qismən də olsa tanımağa başlayır. Bu dövrdə uşaq haqqında müşahidələr sistemli və planlı olaraq həyata keçirilməlidir.

Bu məqsədlə məktəbəqədər yaş dövründə müxtəlif gəzintilər, musiqi, rəsim, müxtəlif oyunlar, quraşdırma işləri, nağıl və hekayə söyləmək, peşələrlə bağlı oyunlar və sərbəst oyunlara sosial, kollektiv və yaradıcı fəaliyyətlərə geniş yer verilməlidir. Təbiidir ki, bu sahədə məktəbəqədər tərbiyə müəssisələrində mütəxəssislər tərəfindən uyğun fəaliyyətlərin həyata keçirilməsi mümkündür və bu pedaqoq və psixoloqların ən önəmli vəzifələridir. Lakin ailə şəraitində uşaqların sistemli olaraq öyrənilməsi, müəyyən bacarıq və vərdişlərinin inkişaf etdirilməsi və yönləndirilməsi bir çox valideynlər üçün, xüsusən də psixoloji və pedaqoji məlumata yetərli səviyyədə sahib olmayan valideynlər üçün çətindir. Bu prosesdə mütəxəsislərin valideynlərə köməyi çox vacibdir. Xüsusən də bu mövzuda kütləvi nformasiya vasitələrinin imkanlarından istifadə etmək yaxşı nəticə verə bilər.

Məktəbəqədər yaş dövründə uşaqlarda peşəseçimi anlayışının inkişafı zamanı məktəbəqədər tərbiyə müəssisələrinin tərbiyəçi, pedaqoq və psixoloqlarının hər zaman göz

önündə tutması vacib olan bəzi prinsiplər vardır ki, bunların nəzərə alınması peşəseçiminin sonrakı mərhələsində çox vacib məsələlərdəndir. Çünki peşəseçimi inkişafının bu dövründə uşağın qazanacağı təməl anlayış və davranış nümunələri bu prosesin sonrakı mərhələlərinə önəmli dərəcədə təsir göstərir. Bu prinsiplər əsasən aşağıdakılardır:

- 1. Peşəseçimi bir prosesdir. Bu proses məktəbəqədər dövrdən başlayır, müxtəlif mərhələlərdən keçərək ilk gənclik dövrünə qədər davam edir.
- 2. Hər bir insan tək və bənzərsizdir. Hər bir uşağın genetik olaraq sahib olduğu xüsusiyyətləri, qabiliyyətləri, güclü və zəif cəhətləri vardır. Doğulduğu ailənin sosial-iqtisadi və mədəni şərtləri, dəyərləri və davranış modelləri vardır. Bu fərqli xüsusiyyətlərin peşəseçiminə də təsir göstərə biləcəyi diqqət mərkəzində olmalıdır.
- 3. Uşaqda özünüdərketmə, özünə inam, mənlik şüuru kimi xüsusiyyətlərin inkişafı peşəseçiminə böyük təsir göstərir. Bunun üçün də məktəbəqədər dövrdə uşağın inkişafının sağlam zəmin üzərində qurulması üçün uyğun bir mühit yaradılmalıdır.
- 4. Məktəbəqədər tərbiyə müəssisələrinin tərbiyəçiləri və valideynlər istər sahib olduqları peşələrlə bağlı olaraq, istərsə də digər peşələrlə əlaqədar müsbət peşəseçimi düşüncəsi və doğru rol modelləri təqdim etməlidirlər.
- 5. Uşağa "özünü anlama və kəşf etmə"nin təməlini meydana gətirən fərdi xüsusiyyətlərini görməsinə, güclü və zəif cəhətlərini anlamasına imkan verən situasiyalar yaradıl-

malıdır. Düzgün bir peşəseçimi qərarı elə məktəbəqədər dövrdə uşağın özünü düzgün tanımağa başlamaqla mümkündür.

➢ 6. Özünütəsdiq peşəseçiminə təsir göstərir. Özünütəsdiq məktəbəqədər dövrdən başlayır və statik bir vəziyyət deyildir, dəyişən və inkişaf edən bir prosesdir. Buna görə də məktəbəqədər tərbiyə müəssisələrində özünütəsdiq prosesinə müsbət təsir edəcək bir mühit yaradılmalıdır.

➢ 7. Məktəbəqədər dövrdə uşağa "qərar vermə" strategiyaları öyrədilməlidir. Bu dövrdə uşaq bəsit məsələlərin həllində belə olsa qərar vermə və bir seçim etmənin məsuliyyətini anlamasına,verdiyi qərarın, etdiyi seçimin nəticəsini görməsinə imkan yaradılmalıdır.

➢ 8. Uşağın bu dövrdə bütün peşələrin lazımlı və önəmli olması fikrinə yiyələnməsi lazımdır. Digər insanlara faydalı ola biləcək xidmət və istehsalat sahələrində işləyənlərə qarşı hörmət hissinin formalaşmasını uşaq bu yaşlarda qazanmağa başlamalıdır. Peşələri "yaxşı" və "pis" peşə kimi dəyərləndirməyə yol verilməməlidir.

➢ 9. "İnsanlar bir-birindən fərqlidir, peşələr də bir-birindən fərqlidir. Hər bir insanın yetərli səviyyədə öhdəsindən gələ biləcəyi işlər- peşələr vardır" fikrinin də yenə bu dövrdə qazandırılması lazımdır. Uşaqların peşələr və bu peşələri icra edənlər arasındakı fərqləri görməsini təmin edilməsinə çalışmaq lazımdır.

➢ 10. Hər hansı bir peşə sahibi olmaq üçün müəyyən bir təhsilin və öyrənmənin vacibliyi, iş və peşə təhsili haqqında uşağın ümumi fikir qazanması təmin edilməlidir.

Unudulmamalıdır ki, bu dövrdə peşəseçiminin inkişafındakı təməl məqsəd sadəcə peşələrin tanıdılması deyildir. Uşağın bir peşə seçməsi də bu dövr üçün real deyil. Məktəbəqədər dövrdə uşağın peşəseçiminin inkişafı baxımından əsas məqsəd onun

a) ətraf mühiti,
b) əmək həyatını,
c) insanlar arasındakı fərqli xüsusiyyətlərin olmasını,
d) təhsil ilə əmək fəaliyyəti arasındakı bağlılığı
e) özünün fərdi xüsusiyyətlərini

TANIMAĞA, ANLAMAĞA, KƏŞF ETMƏYƏ BAŞLAMASIDIR.

Kiçik məktəb yaşı dövründə ( 6-10 yaş ), ibtidai siniflərdə ( 1-4-cü siniflər ) peşəseçiminin hazırlıq mərhələsinin "oyanış" dövrü adlandırılır. Uşaqda bu dövrdə peşə haqqında ilkin məlumatların, fikir və düşüncələrin meydana gəldiyi qəbul edilir. Bu dövrdə peşəseçiminin inkişafı baxımından müəyyənləşdirilən hədəflər getdikcə daha da aydınlaşdırılır və genişləndirilir. Bu dövrdə sinif müəllimləri şagirdlərin peşəseçiminə təsir göstərən bəzi vəzifələrin həyata keçirilməsində önəmli rol oynamalıdırlar. Xüsusən də şagirdlərin öz fərdi keyfiyyətləri haqqında məlumat əldə etməsi, öyrəndikləri biliklərin gələcək həyatlarında və hər hansı bir peşədə istifadə edilməsində rolu, əmək fəaliyyətinin cəmiyyətin həyatındakı əhəmiyyətini anlamaq kimi düşüncələrə sahib olmasında sinif müəllimlərinin bu mövzuda məlumatlı olmasına çox bağlıdır. Bir məktəbdə məktəb psixoloqunun olub-olmamasından asılı olmayaraq xüsusən

də ibtidai siniflərdə peşəseçiminə rəhbərlik işində ən əhəmiyyətli rolu sinif müəllimləri yerinə yetirir.

İbtidai sinif müəllimləri məktəb psixologuna yardım məqsədilə ibtidai sinif şagirdlərinin peşəseçiminin inkişafı mərhələsində əsasən aşağıdakı bilik və məlumatlara sahib olmalarını təmin etməlidirlər:

***A. Fərdi psixoloji xüsusiyyətləri ilə əmək fəaliyyəti arasındakı əlaqələri anlamaqla bağlı təməl davranışlar qazanmaq:***

1. Öz maraq və meylləri haqqında məlumat əldə etmək.

2. Gələcəkdə sahib olacağı hər hansı bir peşədə fərdi xüsusiyyətlərin nə qədər əhəmiyyətli olduğunu anlamaq.

3. Səmərəli fəaliyyət vərdişləri qazanmağın və məsuliyyət hissinə sahib olmağın önəmini başa düşmək.

***B. Qərar vermək, məqsədləri müəyyənləşdirmək və praktik fəaliyyətə başlamaq:***

4. Əmək fəaliyyətinin faydası və məktəbdə öyrənilən bilik, bacarıq və vərdişlərlə gələcək peşə sahəsində qazanılacaq uğurun əlaqəsini başa düşmək.

5. Qərar vermək və seçim etmək strategiyalarını öyrənmək.

6. Məqsədə uyğun olaraq real fəaliyyət planı hazırlamağın önəmini anlamaq.

***C. Peşələr haqqında ilkin məlumat toplamaq:***

7. Ailə üzvlərinin və məktəb işçilərinin fəaliyyətlərini dərindən müşahidə etməyə başlamaq.

8. İstehsalat sahələrində çalışan insanların fəaliyyətlərini geniş şəkildə müşahidə etməyə çalışmaq.

9. Ailə və məktəb həyatından başqa əmək həyatının olduğu ilə bağlı da düşüncəyə sahib olmaq.

10. Fərqli peşələr haqqında məlumat əldə etmək üçün məktəb və məktəbdən kənar fəaliyyətlərdə aktivlik göstərmək.

11. Əmək fəaliyyətində kişi və qadın rolları haqqında məlumat əldə etməyə maraq göstərmək.

***D. Asudə vaxtlardan necə istifadə edəcəyini öyrənmək:***

12. Ailəsi, yoldaşları və təkbaşına həyata keçirəcəyi asudə vaxt fəaliyyətləri haqqında məlumat sahibi olmaq.

13. Həddən artıq televiziya qarşısında oturmağın mənfi təsirlərini başa düşmək.

14. Asudə vaxtlarda hansı fəaliyyətlərə məşğul ola biləcəyini müəyyənləşdirməyi öyrənmək.

***E. Birgə fəaliyyət göstərməyi, işbirliyini öyrənmək:***

15. Hər hansı bir əmək fəaliyyəti ilə məşğul olarkən və ya əylənərkən başqaları ilə işbirliyində olmağı öyrənmək.

16. İstifadə etdiyi əşyaları ehtiyacı olan digər şagirdlərlə paylaşmaq.

17. Qrup fəaliyyəti zamanı hər kəsə qarşı eyni səmimiyyətlə davranmağı öyrənmək.

18. Qrup fəaliyyətində müxtəlif metodlardan istifadə etməyi öyrənmək.

***F. Sosial inkişafın əmək fəaliyyətinə necə təsir göstərdiyini başa düşmək:***

19. Cəmiyyətin ehtiyacları və funksiyalarının əmək həyatına necə təsir göstərdiyi haqqında təməl məlumat əldə etmək.

20. İnsan həyatının güvənli olması və qorunması üçün müəyyənləşdirilmiş hüquq normalarına əməl etməmənin ciddi nəticələrə gətirib çıxara biləcəyi haqqında məlumat sahibi olmaq.

21. İnsanların məktəb, kənd, qəsəbə, şəhər və ölkə ilə bağlı bir üzv kimi hansı rollara sahib olduqlarını və bu rolların ortaya çıxardığı məsuliyyəti başa düşəmək.

22. Məktəbin, kəndin, qəsəbənin, şəhərin və cəmiyyətin bir üzvü olaraq sosial vəzifələri həyata keçirməyə çalışmaq.

Bu dövrdə sinif müəlliminin diqqət etməsi vacib olan cəhətlər əsasən bunlardır:

➢ 1. Peşəseçimi inkişafının bir proses olmasına diqqət edilərək kiçik yaşlı məktəblinin məktəbəqədər dövrdə peşəseçiminin inkişafı baxımından qazandığı bilik və bacarıqlar dəyərləndirilməli, yeni bilik, bacarıq və vərdişlər bunlar üzərində inşa edilməlidir. Təbiidir ki, bu mərhələdə uşaqdakı yanlış düşüncə və davranışlar düzəldilməlidir.

➢ 2. Bu dövrdə həyata keçirilən tədbirlərdə ailənin də iştirakı təmin edilməlidir. Uşaqların peşəseçiminə müsbət təsir göstərən mühit və şəraitin yaradılmasında ailəyə də gərəkli məlumat verilməli onlar da bu sahədə informasiya sahibi olmalıdırlar.

➢ 3. Məqsədə çatmaq üçün lazımi təlim-tərbiyə imkanları yaradılmalı və dərsdənkənar tədbirlər həyata keçirilməlidir.

➢ 4. Peşəseçimi inkişafının vəzifələrinin öhdəsindən gəlmək üçün bu dövrdə uşaqları daha da aktivləşdirəcək tədbirlər təşkil edilməlidir. Xüsusən də yuxarı siniflərdə məktəblilər araşdırma aparmağa istiqamətləndirilməlidir.

➢ 5. Sinif müəlliminin mütəmadi olaraq peşəseçiminin inkişafı baxımından ən vacib vəzifələrindən birisi uşağın inkişafını yaxından müşahidə etməsi və onu yaxından tanımaq üçün gərəkli fəaliyyət göstərməsidir.

➢ 6. Bu dövrdə uşağa təhsil, əmək fəaliyyəti və peşələr baxımından məlumat vermək, onun özünü kəşf etməsinə və tanımasına imkan yaratmaq lazımdır.

Yuxarı siniflərdə şagirdlərin peşəseçiminə yardım etmək məqsədilə sinif rəhbərlərinin psixoloqa yardım etmək üçün həyata keçirəcəkləri vəzifələr əsasən aşağıdakılardır.

➢ 1. Şagirdlərin mənlik şüurunun formalaşmasına köməklik göstərməlidirlər. Bunun üçün şagirdlərin sahib olduqları qabiliyyət, istedad, maraq və meyllərini tanımağa və qəbul etməyə başlamasına yardım etmək lazımdır. Yeniyetmə və gənclərə öz maraq, meyl, istedad və qabiliyyətlərini kəşf etmələrini və sınaqdan çıxarmalarını təmin etmək üçün müxtəlif tədbirlər təşkil edilməlidir. Bu tədbirlər dərs və dərsdənkənar məşğələlərdə həyata keçirilməlidir. Bütün bu tədbirlər vasitəsilə yeniyetmə və gənclərin özləri üçün gizli olan qabiliyyət və istedadlarının ortaya çıxarması təmin edilməlidir.

➢ 2. Sinif rəhbərləri şagirdlərə fərqli peşə məktəbləri və ixtisaslar haqqında məlumat verməli, müəyyən təhsil nəticəsində qazanılacaq peşə və sənətlər arasındakı oxşar və

fərqli cəhətləri onların diqqətinə çatdırmalıdır. Şagirdlərə bu mövzuda daha çox məlumatı haradan əldə edəcəkləri haqqında informasiya verməlidir.

- 3. Orta ümumtəhsil məktəblərində keçirilən fənlərin məqsədi, mahiyyəti ilə real həyatda istifadə edilməsi arasındakı əlaqə, qazandırılan bilik, bacarıq və vərdişlər ilə peşə xüsusiyyətləri arasındakı bağlılıq açıqlanmalı və şagirdlərin bu bağlılığı görmələri təmin edilməlidir.

- 4. Şagirdlərə elm və texnologiya sahəsindəki yeniliklər ilə sənayedə və istehsalat sahəsindəki inkişafın əlaqəsi açıqlanmalıdır. Bu məqsədlə texnoloji inkişafın həyatımıza gəiyitirdiyi yenilik və imkanları görməyə, bunlara necə uyğunlaşdığımıza və həyat şəraitimizə necə təsir etdiyinə diqqət yetirilməlidir. Sənaye və texnologiyadakı inkişaf ilə bağlı olaraq hansı yeni peşələrin meydana çıxması və hansı peşə sahələrinin artıq öz fəaliyyətini itirməsini şagirdlər müəyyənləşdirə bilməlidirlər.

- 5. Sinif rəhbərləri şagirdlərə uyğun seçim etməkdə köməklik etməli, onlara hədəfləri düzgün müəyyənləşdirməkdə istiqamət verməlidirlər. Bu məqsədlə şagirdlərə uğurlu nəticə əldə etmək üçün gərəkli və vacib olan plan tərtib etmək və qərar vermək bacarıqları aşılamalıdır.

- 6. Sinif rəhbərləri şagirdləri müəyyən bir peşəyə istiqamətləndirmək üçün onları yaxşı tanımağa çalışmalı, şagirdlərin inkişafı ilə bağlı məlumatlar toplamalı, hər şagird üçün xüsusi qeydlər aparmalı və bu məlumatları davamlı olaraq dəyərləndirməli, təhlil etməlidir.

➢ 7. Sinif rəhbərləri eyni zamanda böhran yaş dövründə olan yeniyetmələrin, eləcə də gənclərin peşəseçimi prosesində ailəsi ilə arasında çıxan problemlərin həllinə yardım etmək məsuliyyəti daşıyır.

➢ 8. Xüsusən də yeniyetməlik yaşı dövrü şagirdlərin fiziki və psixi inkişafı baxımından olduqca mürəkkəb bir dövrdür. Çünki yeniyetmə bir dəyişmə, uyğunlaşma, öz "mən"ini tapma və təsdiq etmə problemi içərisindədir. Bu böhran təbii olaraq peşəseçimi ilə bağlı qərarlar almasında da bir sıra problemlərə səbəb ola bilər. Bunun üçün də yeniyetmələrin bu dəyişmə və uyğunlaşma prosesini problemsiz və ya az problemlə keçirmələri gələcək planların düzgün, real və asan müəyyənləşdirmələrinə imkan yaradar. Heç şübhəsiz ki, bu dövrdə sinif rəhbərləri ilk əvvəl yeniyetməlik dövrünün inkişaf xüsusiyyətlərini dərindən bilməli və yeniyetmələrin bu böhran dövrünü normal keçirməsinə yardım etməlidirlər.

Ümumiyyətlə, yeniyetməlik yaşı dövründə yeniyetmənin özünü daha yaxşı tanıması, öz gizli potensialını aşkara çıxarması, müxtəlif peşələr haqqında gərəkli məlumat əldə etməyə çalışması kimi fəaliyyətlərin hakim olduğu dövrdür. Bu dövrdə yeniyetmələr "müvəqqəti peşə seçimləri" edirlər. Yeniyetmələr özləri və peşələrlə bağlı yeni məlumatlar əldə etdikcə peşə seçimi ilə bağlı fikirləri də dəyişir.

Məktəbi bitirdikdən sonra yeniyetmə və gənc məzun olub əmək fəaliyyitinə başlayacaq, ya da bir üst təhsil müəssisəsinə yönəlib müəyyən bir peşə üçün təhsilini davam etdirəcəkdir. Hər iki halda da yeniyetmə və gənclərin gələ-

cək həyatlarına təsir göstərəcək mühüm bir qərar verilir. Elə bu qərarın ən uyğun və doğru bir qərar olması üçün peşəseçimi baxımından gərəkli yardım xidmətlərini alması vacibdir.

Yeniyetmə və gəncləri peşələrə istiqamətləndirmək üçün məktəb psixoloqlarının əsas vəzifələri aşağıdakılar olmalıdır:

- Yeniyetmənin bu mövzuda məlumat əldə etmək istəyi və marağını dəstəkləmək.
- Müxtəlif peşələrə qarşı onda müsbət yanaşma formalaşdırmaq.
- Araşdırdığı peşələr içərisindən özünə uyğun bir peşə seçməsinin vacib olması fikrini aşılamaq
- Gələcək əmək fəaliyyəti üçün vacib davranış nümunələri aşılamaq.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək orta ümumtəhsil məktəblərində peşəseçiminə səmərəli psixoloji rəhbərlik işində məktəb psixoloqlarının əməl etmələri vacib olan prinsipləri belə sıralaya bilərik:

☞ 1. Peşəseçiminə psixoloji rəhbərlik fəaliyyətləri zamanı əsas məqsəd və vəzifələr, bu işdə məktəb psixoloquna kömək edəcək olan pedaqoqlar və maddi imkanlar müəyyənləşdirilmlədir.

☞ 2. Şagirdlərin peşəseçiminə psixoloji rəhbərlik ehtiyaclarını və xüsusiyyətlərini müəyyənləşdirmək üçün gərəkli araşdırmalar aparılmalıdır.

☞ 3. Peşəseçiminə psixoloji rəhbərlik üçün lazım olan maddi vəsait ayrılmalıdır.

☞ 4. Mövcud peşələrə aid məlumatların toplanması, bu məlumatların qruplaşdırılması və saxlanması işi məktəb psixoloquna həvalə edilməlidir.

☞ 5. Peşəseçiminə psixoloji rəhbərlik haqqında şagirdlər, məktəbdə fəaliyyət göstərən pedaqoqlar, valideynlər və ictimai birliklər məlumatlandırılmalıdır.

☞ 6. Məktəbdə həyata keçirilən peşəseçiminə psixoloji rəhbərlik fəaliyyətləri mütəmadi olaraq məktəb rəhbərliyi tərəfindən nəzarətdə saxlanılmalı, həyata keçirilən işlər, istifadə edilən metodların səmərəlilik dərəcəsi müəyyən zaman fasilələrində dəyərləndirilməlidir.

Peşəseçiminin inkişaf mərhələlərindən də aydın olduğu kimi bu inkişaf mərhələləri təhsil sistemi içindəki mərhələləri əhatə edərək həyata keçir. Məktəbəqədər və ya ibtidai təhsil dövründən başlayan təhsilalma prosesi eyni zamanda bir peşəyə hazırlanma prosesidir. Təhsil sisteminin hər hansı bir mərhələsində qarşıya qoyulmuş ümumi məqsəd və vəzifələrlə yanaşı yeniyetmə və gənclərin uyğun peşəyə istiqamətləndirilməsinin də ayrıca məqsəd və vəzifələri vardır. Bu məqsəd və vəzifələrin həyata keçirilməsi işi ümumi məqsəd və vəzifələrlə birlikdə həyata keçirilməlidir. Digər bir deyilişlə, müasir təhsil sistemi insanın bir peşəyə hazırlanmasını onun bir bütün olaraq inkişafının məqsəd və vəzifələri içərisində həyata keçirilir.

Şagirdlərin peşələrə istiqamətləndirilməsində bir sıra prinsiplərə əməl edilməlidir ki, bu prinsiplər də əsasən aşağıdakılardan ibarətdir:

❒ 1. Məsuliyyətlilik prinsipi. İstiqamətləndirmə məcburedici deyil, qarşı tərəfi bu işə həvəsləndirərək həyata keçirilməli, yeniyetmə və gənclərin verəcəyi qərarın reallığa uyğun olması təmin edilməlidir. Lakin buna baxmayaraq hansı ixtisas və peşəni seçəcəyinə şagirdlərin özlərinin qərar verməlіrinə, məsuliyyəti dərk edərək öz üzərlərinə götürmələrinə şərait yaradılmalıdır.

❒ 2. Davamlılıq prinsipi. Şagirdlərin peşələrə istiqamətləndirilmələri sadəcə yuxarı siniflərdə həyata keçirilən bir fəaliyyət olmamalıdır. Bu işlər ibtidai siniflərdən başlanılmalıdır. Məktəb psixoloqu tərəfindən ibtidai sinif şagirdləri haqqında bir sıra metodlarla əldə edilmiş məlumatlar davamlı olaraq təhlil edilməli, şagirdlərdə peşə marağının inkişaf mərhələləri öyrənilməli, bilik, bacarıq, vərdiş qabiliyyət və istedadlarının müəyyən zaman çərçivəsində vəziyyəti müəyyənləşdirilməlidir. Yəni şagirdlərin peşələrə istiqamətləndirilməsi ibtidai siniflərdən başalayaraq buraxılış siniflərinə qədər aparılan müşahidə və dəyərləndirmələrə uyğun olaraq həyata keçirilməlidir.

❒ 3. Bərabərlik prinsipi. Peşələrə istiqamətləndirmə fəaliyyətləri zamanı bu fəaliyyətlərdən bütün məktəb şagirdlərinin faydalanmalarına şərait və imkan yaradılmalıdır. Məktəb psixoloqu məktəbdəki hər bir şagirdi bu fəaliyyətlərdə maraq və həvəslə iştiraka yönləndirməlidir. Mək-

təbdə heç bir şagird peşələrə istiqamətləndirmə fəaliyyətlərindən kənarda qalmamalıdır.

❐ 4. Bütünlük prinsipi. Peşələrə istiqamətləndirmə işi təhsilin müəyyən pilləsində pedaqoji prosesdən ayrılan yeniyetmə və gənclər üçün də açıq olmalıdır. Ümumiyyətlə, mütəxəssislər müəyyən səbəblərdən təhsildən ayrı qalmış yeniyetmə və gəncləri də onların bilik, bacarıq, qabiliyyət və istedadları doğrultusunda istiqamətləndirməlidirlər.

Şagirdlərin müəyyənləşdirilmiş fərdi-psixoloji xüsusiyyətlərinə görə gələcəkdə seçəcəkləri peşələr üçün gərəkli fəaliyyətlərə istiqamətləndirilmələri valideynlər, pedaqoqlar və xüsusən də məktəb psixoloqlarının əsas vəzifələrindən biridir. Onu da qeyd edək ki, şagirdlərin xüsusi bacarıq və qabiliyyətlərinin müəyyənləşdirilməsi sadəcə konkret olaraq kiçik məktəb yaşı dövründə və yaxud da yeniyetməlik yaşında müəyyənləşdirilən konkret bir diaqnoz deyildir. Məktəb psixoloqu hər bir şagird üçün uzun müddətli müşahidə və araşdırmalara dayanan bir sistemə sahib olmalıdır. Çünki bəzən yuxarı siniflərdə şagirdlərin bəzilərində gizli olan qabiliyyət və istedadlar özünü büruzə verir. Bunun üçün xüsusən də səkkiz və doqquzuncu siniflərdə şagirdlər haqqında toplanılan məlumatlar nə qədər əhatəli olarsa, yeniyetmə və gənclərin peşələrə istiqamətləndirilməsi də bir o qədər səmərəli olar. Bu işdə əsasən aşağıdakı məlumatların toplanması vacibdir:

***I. Şagirdin qabiliyyət, istedad və təlim uğurunun vəziyyəti.***

❑ 1. Şagirdlərin təlim müvəffəqiyyəti, müxtəlif illərdə şagirdlərin keçirilən dərslərdən aldıqları qiymət ortalamaları.

❑ 2. Axırıncı dəfə şagirdin istiqamətləndirildiyi fəaliyyətlər və yaxud bir il əvvəl şagirdin təlim müvəffəqiyyətinin yekun qiymətləri.

❑ 3. Humanitar, dəqiq və təbiət elmləri sahəsində şagirdin aldığı qiymətlərin ortalaması.

❑ 4. Şagirdin müxtəlif illərdə müxtəlif dərsləri mənimsəmə səviyyəsindəki artma və azalma.

❑ 5. Ümumiyyətlə mənimsəmə səviyyəsinin yüksək və aşağı olduğu dərslər.

❑ 6. Şagirdin iki il bir sinifdə qalma halının olub-olmaması.

❑ 7. Şagird haqqında bioqrafik məlumatlar, əmək və peşə təcrübəsi.

❑ 8. Məktəbdə psixoloq tərəfindən tətbiq edilən ümumi qabiliyyət və istedadın müəyyənləşdirilməsinə xidmət edən müvəffəqiyyət, xüsusi qabiliyyət və kreativ testlərinin nəticələri.

❑ 9. Şagirdin iştirak etdiyi sınaq imtahanlarının nəticələri.

❑ 10. Şagirdə dərs deyən müəllimlərin və sinif rəhbərinin şagirdin yönəldilə biləcəyi peşə istiqaməti haqqında düşüncələri.

❑ 11.Məktəbdə fəaliyət göstərən uşaq və gənclər birliyinin sədrinin şagird haqqında düşüncələri.

*II. Şagirdin fərdi xüsusiyyətləri.*

Şagirdin ümumi sağlamlığı, fiziki güc və qüvvə səviyyəsi, fiziki görünüşü və bədən quruluşu, fiziki qüsurlarının olub-olmaması, dəyərləri, hissi və emosional xüsusiyyətləri, onu fəaliyyətə istiqamətləndirən əsas motivləri, sosial fəaliyyətləri, gələcəklə bağlı düşüncələri və planları.

***III. Şagirdin əsas maraq və meyllərinin xüsusiyyətləri.***

❑ 1. Şagirdin asudə vaxtlarda iştirak etdiyi fəaliyyətlər.

❑ 2. Şagirdin maraq dairəsini müəyyənləşdirmək üçün tətbiq edilən testlərin nəticələri.

❑ 3. Müəllimlərin, sinif rəhbərinin şagirdin maraq və meylləri haqqında fikirləri.

❑ 4. Ailənin şagirdin maraqlandığı fəaliyyətlər haqqında düşüncələri.

***IV. Şagirdin istəyinə bağlı olaraq fəaliyyət proqramının xüsusiyyətləri.***

❑ 1. Şagirdin dərsdənkənar hansı könüllü məşğələ və tədbirlərdə iştirak edəcəyi ilə bağlı seçimi.

❑ 2. Şagirdin gələcəklə bağlı arzuları, planları və onu seçimə sövq edən motivləri.

❑ 3. Seçməyi planlaşdırdığı peşənin xüsusiyyətləri və şagird baxımından gələcək imkanları.

❑ 4. Seçilən peşəyə hazırlığın sonunda qazanılan peşənin tələb etdiyi xüsusiyyətlər ilə şagirdin xüsusiyyətləri arasında uyğunluq dərəcəsi.

❑ 5. Şagird üçün ixtisasa hazırlığın müddəti və orta təhsildən sonra davam ediləcək orta ixtisas təhsilinin və ali təhsilin şərtləri.

❑ 6. Peşə seçimi ilə bağlı həyata keçirilən fəaliyyətlər sonunda seçilən peşə və ixtisasın insan üçün maddi təminatı, sosial xüsusiyyətləri və peşədə irəliləmə imkanlarının olub-olmaması.

***V. Ailənin düşüncəsi.***

❑ 1. Şagirdlə bağlı alınan qərarlarda ailənin şagird haqqında düşüncələri, arzu və istəkləri.

❑ 2. Uşaqlar haqqında mütəxəssislər tərəfindən ailəyə verilən gərəkli istiqamətləndirmə tövsiyyələrinə valideynlərin verdiyi reaksiya və ortaya qoyduğu düşüncələri.

***VI. İxtisasa hazırlıq fəaliyyətləri, peşəyə uyğun iş tapma və bu işdə uzun müddət çalışma imkanları.***

❑ 1. Seçilən peşəyə hazırlıq üçün yaxın çevrədə gərəkli imkanların olub-olmaması.

❑ 2. Peşəyə hazırlıq mərhələsində, orta ixtisas və ali təhsil alma müddətində gərəkli olan təhsil xərclərinin ailə tərəfindən qarşılanması, dövlətin, müəyyən cəmiyyət və qurumların təqaüdlə təmin etmə imkanı, yataqxana ilə təminat və s. kimi imkanların mövcudluğu.

***VII. Peşənin ölkədə insangücünə ehtiyacı baxımından mövqeyi.***

❑ 1. Dövlət və özəl sektor səviyyəsində ölkənin seçilən peşəyə ehtiyacının nə dərəcədə olması və həmin peşə ilə bağlı dövlətin perspektiv planları.

***VIII. Məktəb psixoloqunun şagird haqqında ümumi dəyərləndirməsinin nəticələri.***

❑ 1. Şagirdlə bağlı əldə edilən nəticələr mövcud şərtlər göz önündə tutularaq, valideynlərin, müəllimlərin, sinif rəhbərinin şagirdlə bağlı fikirləri ümumiləşdirilərək bütün peşə seçimləri müəyyənləşdirilməli, bu seçimlər şagirdə təqdim edilməli və seçimi şagird etməlidir.

## YENİYETMƏ VƏ GƏNCLƏRİN PEŞƏSESİMİNƏ AİLƏNİN TƏSİRİ

Heç şübhəsiz ki, ailə uşaqların bir şəxsiyyət kimi formalaşmasında təməl tərbiyə müəssisələrindən biri və hətta birincisidir. Yeniyetmə və gənclərin peşə seçimində valideynlərin təsiri və rolu çox önəmlidir. Mütəxəssislərin apardıqları araşdırmalara görə yeniyetmə və gənclərin peşəseşimində ata-anaların təsiri və rolu baxımından valideynlər 4 qrupa bölünür. Bunlar əsasən aşağıdakılardır:

❒ 1. Birinci qrupdakı valideynlər gənclərin peşəseçiminə böyük məsuliyyətlə yanaşırlar. Bu cür valideynlər övladlarına gərəkli peşə məsləhəti verməklə yanaşı onların maraq, meyl və istəklərini nəzərə alır, uşaqların təlim fəaliyyətləri ilə maraqlanır, gələcəkdə övladlarının onlar üçün daha uyğun olan peşə yiyələnməsinə yardımçı olurlar.

❒ 2. İkinci qrupa daxil olan valideynlər gənclərin peşəseçimində özlərinin rəyini əsas götürürlər. Övladların peşəseçimində son söz, son qərar valideynlərindir. Onlar gənclərin maraq və qabiliyyətlərini nəzərə almır, onların fikir və düşüncələrini öyrənmirlər və bu işdə əsasən ən prestijli, cəmiyyət içində daha çox maddi baxımdan nüfuzlu peşələrə üstünlük verirlər.

❒ 3. Üçüncü qrupa daxil olan valideynlər övladlarının peşəseçimini gənclərin öz ixtiyarına buraxırlar. Demək olar ki, bütün məsuliyyət yeniyetmə və gənclərin üzərinə qoyulur. Belə valideynlər əsasən övladlarının marağını düşünür, ancaq onların qabiliyyətlərini bacarıqlarını nəzərə almırlar və bu istiqamətdə yeniyetmə və gənclərə gərəkli məsləhəti vermirlər.

❒ 4. Dördüncü qrupa daxil olan valideynlər övladlarının gələcəkdə hansı peşəni seçmələrinə heç bir diqqət yetirmirlər. Bir növ onları bu məsələdə yalnız buraxırlar, gələcək peşəseçimi məsələsi baxımından övladlarının fikirlərini belə öyrənməyə səy göstərmirlər. Hər cür seçimi gənclərin ixtiyarına verir və bu haqda onlarla söhbətə belə lüzum görmürlər.

Aparılan araşdırmalar göstərir ki, məzun olan oğlan və qızların 50 faizi öz valideynlərinin və böyük qardaş və bacılarının təsiri altında peşə seçirlər. Bunun üçün də məktəb psixoloqları valideynlərlə davamlı olaraq əlaqə saxlamalı, övladlarının peşə seçmək məsələsinin sosial baxımdan mahiyyətini dərindən dərk etmələrini təmin etməli, övladları ilə peşəyönümü işi apararkən onların maraqları ilə yanaşı, qabiliyyətlərini və cəmiyyətin peşə ehtiyacını da nəzərə almalarının gərəkli olduğunu valideynlərin diqqətinə çatdırmalıdırlar. Lakin burada bir cəhəti də yaddan çıxarmaq olmaz ki, bəzən uşaqların maraq, meyl və arzularına da həddən artıq önəm vermək gələcəkdə bir sıra mənfi hallarla qarşılaşmağa səbəb olur. Elə bu sahədə məktəb psixoloqları valideynlərə lazımi köməklik göstər-

məli, onlara hər hansı bir peşənin xüsusiyyətlərini, bu peşənin cəmiyyətimizdə tutduğu yeri və işçidən tələb etdiyi psixofizioloji xüsusiyyətləri hər zaman göz önündə tutmaq haqqında gərəkli məlumatlar verməli, onları bu sahədə müəyyən bilik sahibi etməlidirlər. Məktəb psixoloqu tərəfindən şagirdlərin peşə maraqlarının müəyyənləşdirilməsi və bu məlumatların ailə ilə paylaşılması çox gərəklidir. Təbiidir ki, bu sahədə yetəli səviyyədə bilik sahibi olmayan valideynlərlə söhbət aparmaq, onları övladlarının peşəseçimində lazımi mövqe tutmalarını və gənclərə yardım etmələrini təmin etmək çox vacibdir.

Cəmiyyət üçün faydalı və yararlı, özünə güvənən, öyrənməkdən və yaratmaqdan zövq alan insanlar yetişdirmək hər bir ailənin uşaq tərbiyəsindəki əsas məqsədlərindən biridir.

Sosial mühit və valideynlərlə qurulan səmərəli ünsiyyət məktəb psixoloqunun peşəseçiminə dair fəaliyyətinin uğurlu olmasını təmin edən amillərdən biridir. Bu baxımdan son illərdə məktəblərdə psixoloji xidmət işində sosial mühit və valideynlərlə birgə işin önəmi dəfələrlə vurğulanaraq bu sahədə müəyyən işlər görülməyə çalışılmışdır.

Ümumiyyətlə, məktəblərdə psixoloji xidmət işində olduğu kimi, gənclərin peşəseçiminə psixoloji rəhbərlik işində də valideynlərlə əlaqə saxlanılması və işbirliyinin təmin olunması mütəxəsislər tərəfindən çox önəmli bir vəzifə olaraq məktəb psixoloqlarının qarşısına qoyulmuşdur. Buna görə də davamlı olaraq məktəbdə gənclərin peşəseçimi məsələsi baxımından valideynlərə övladlarının ümumi

inkişaf səviyyələri, bilik, bacarıq, istedad və qabiliyyətləri haqqında məlumat vermək, lazım gəldikdə onlardan gərəkli məlumar toplamaq çox vacibdir. Bu fəaliyyətlər müxtəlif psixoloji rəhbərlik metodlarından, vasitə və priyomlarından faydalanaraq həyata keçirilməlidir. Eyni zamanda, məktəblə ailənin əlaqə formalarından: məktəb valideyn iclaslarından, sinif valideyn iclaslarından, məktəbdə keçirilən "açıq qapı" günlərindən və s. kimi tədbirlərin imkan və fürsətlərindən faydalanmaq çox səmərəli olar.

Gənclərin peşəseçiminə kömək məqsədilə valideynlər və ictimaiyyətlə əlaqədə məktəb müdirinin yardımı və dəstəyi çox önəmlidir. O, birbaşa olaraq məktəbdə bir çox fəaliyyətlərin olduğu kimi peşəseçimi fəaliyyətlərinin də həyata keçirilməsinə nəzarət və rəhbərlik edir. Bu baxımdan da məktəb müdirlərinin gənclərin peşəseçiminə xüsusi diqqət və məsuliyyətlə yanaşması çox önəmlidir.

Lazım gəldikdə məktəb psixoloqları daha çox valideynə xitab etmək məqsədilə kütləvi informasiya vasitələrində: televiziya verilişlərində, yerli mətbuatda davamlı olaraq çıxışlar etməli, peşəseçimi ilə bağlı məlumatları onlara çatdırmalıdırlar. Çünki mətbuat orqanları, radio və televiziya proqramları da məktəb, ictimaiyyət və ailə ilə əlaqələri artırır, məktəbdə gənclərin peşəseçiminə psixolji rəhbərlik fəaliyyətləri haqqında ictimaiyyətə və ailəyə gərəkli məlumatları verir.

Gənclərin peşəseçiminə kömək baxımından məktəb psixoloqlarının ailələrə getmələrinin də önəmi böyükdür. Bu zaman məktəb psixoloqaları gənclərin məktəbdə bəzən

özünü büruzə verməyən bir çox xüsusiyyətəri haqqında da məlumat əldə etmək imkanına sahib olurlar.

Ailə ilə ev şəraitində görüş eyni zamanda ailənin məktəbdə psixoloji xidmətlər haqqında məlumatlandırılması ilə birlikdə ailə ilə məktəb arasında sıx işbirliyi və əməkdaşlığın meydana gəlməsində önəmli rol oynayır.

Ailə ilə görüşün əsas məqsədi uşaq, yeniyetmə və gənclərin ailə mühiti ilə bağlı müəyyən məlumatları toplamaq və onu daha yaxşı tanıyaraq onun öz-özünü tanımasına və peşəseçimində qarşıya çıxan problemləri uğurla həll etməsində köməklik etməkdir. Lakin bu zaman məktəb psixologlarının diqqət etməsi gərəkli olan bəzi cəhətlər vardır ki, bunlar da aşağıdakılardan ibarətdir:

➢ 1. Məktəb idarəçiləri məktəblilərə psixoloji xidmətdə ailə ilə görüşün əhəmiyyətini lazımi səviyyədə başa düşməli və bu məqsədlə də məktəb psixoloqları üçün gərəkli şərait yaratmalı və köməklik göstərməlidirlər. Eyni zamanda məktəb rəhbərləri valideyn yığıncaqlarında ailələrin bu görüşlərə qarşı istəkli olması üçün lazımi məlumatları verməli və bütün bu görüşlərin onların övladlarının bir şəxsiyyət kimi formalaşmasına yardım məqsədilə birgə fəaliyyət üçün önəmli olduğu vurğulanmalıdır.

➢ 2. Ailəyə getmədən əvvəl məktəb psixoloqu mütləq bir plan tərtib etməlidir. Ailə ilə öncədən əlaqə saxlanılmalı və görüş üçün zaman müəyyənləşdirilməlidir. Ailə ilə görüşlə bağlı məktəbliyə də xəbər verilməlidir.

➢ 3. Ailə ilə görüş zamanı hansı mövzuda valideynlərlə söhbət aparılacağı, məktəbli haqqında hansı məlumatların toplanacağı müəyyənləşdirilməlidir. Bu məlumatları səmərəli yolla, obyektiv şəkildə toplamaq üçün lazım gəldikdə anketlərdən, testlərdən və s. vasitələrdən istifadə etmək faydalıdır.

➢ 4. Hər bir görüşün sonunda toplanan məlumatlar mütləq qeydə alınmalıdır. Bəzi məlumatlar görüş vaxtı, ailədə də qeydə alına bilər. Bəzi məlumatların isə görüş vaxtı qeydə alınması düzgün olmaz. Şübhəsiz ki, hansı məlumatların görüş zamanı, hansı məlumatların isə ailə ilə görüşdən sonra yazılmasının gərəkli olduğunu məktəb psixoloqu özü müəyyənləşdirməlidir və burada ümumi qanunauyğunluqlara əsaslanmalıdır.

➢ 5. Ailə ilə görüşə getmədən əvvəl ailə və məktəbli haqqında lazımi məlumat toplanılmalıdır.

➢ 6. Ailə ilə görüş zamanı məktəblinin də bu görüşə hazır olması lazımdır. Bu qarşılıqlı söhbət və ünsiyyəti daha da asanlaşdırar.

➢ 7. Görüş zamanı ailə və məktəbli qəti olaraq hər hansı bir mövzuda tənqid edilməməlidir. Məktəbli haqqında daha çox müsbət fikirlərə yer verilməlidir. Xüsusilə məktəblini digər uşaqlarla qarşılaşdıracaq ifadə və kəlimələrdən uzaq olmaq lazımdır. Eyni zamanda ailə ilə görüş zamanı məktəb və digər müəllimlərin tənqid edilməsinə də fürsət yaradılmamalı, buna imkan verilməməlidir.

➢ 8. Ailə ilə görüş müəyyən planlaşdırılma əsasında aparılsa da, çox formal və ya rəsmi şəkildə həyata keçirilməməlidir. Həyəcanla və tələsik həyata keçirilməllidir. Xüsusilə də görüşün başlanğıcında və sonunda qarşılıqlı etik davranış normalarına, hörmət və nəzakət qaydalarına əməl edilməlidir.

➢ 9. Bu görüşlər zamanı əldə edilən məlumatlar məktəbdə mövcud sənədlərdə qeyd edilməli və lazım gəldiyində istifadə edilməlidir.

Ümumiyyətlə, yuxarıda qeyd edilənlər ümumi psixoloji rəhbərlikdə olduğu kimi məktəblilərin peşə seçimi məsələsində də önəmli cəhətlərdəndir. Ona görə də yuxarıda sadalanan qaydaların ailələrə gedərkən mütləq göz önündə tutulması vacibdir.

Məktəb psixoloqları valideynlərlə yeniyetmə və gənclərin peşə seçimi haqqında iş apararkən eyni zamanda məktəblilərlə də bu baxımdan mövcud valideyn davranışları qarşısında necə davranacaqlarına dair psixoloji məsləhətlə yardım göstərməlidirlər. Əks təqdirdə bu məsuliyyətli seçim zamanı bəzi problemlərin ortaya çıxma ehtimalı yüksəkdir.

Konkret olaraq aşağıda qeyd edilən valideyn mövqelərinə qarşı yeniyetmə və gənclərin göstərəcəkləri davranışlar məktəb psixoloqları tərəfindən onların diqqətlərinə çatdırılmalıdır.

- ***"Mən olmadım sən olacaqsan" yanaşması.*** Bəzi ata-analar özlərinin həyata keçirə bilmədikləri arzu və istəklərini övladlarının həyata keçirmələrini istəyirlər. Əgər belə

bir davranışla qarşılaşmısınızsa onlarla konfliktə girmədən öz qabiliyyət və istedadlarınızı onlara göstərməyə səy edin. Sizi məcburi olaraq istədikləri bir peşəyə istiqamətləndirmələri yerinə onların sizə bu mövzuda yardım etmələrini istəyin. Onların bu məcburediciliyinə qarşı çıxmazdan əvvəl onları anlamağa çalışın. Peşəseçimi mərhələsinin yaxın insanlarla konfliktə səbəb ola biləcək bir mərhələ olmaktan çox yardımlaşmaya dayanan bir proses olduğunu unutmayın. Onların sizə bu prosesdə necə dəstək ola biləcəklərini təmin edəcəyiniz haqqında düşünün. Unutmayın ki, bu mərhələ həm də sizin öz yaxınlarınıza özünüzü tanıtmanız üçün bir fürsətdir.

- *"Qonşunun uşağı oldu, amma..."* yanaşması. Qonşuların, qohumların uşaqları ilə daima müqayisə edilə bilərsiniz. Əslində valideynlər belə sözlərin sizə böyük təsiri olduğunu düşünərək deyə bilərlər. Bu sözlər özünüzü bacarıqsız hiss etmənizə səbəb ola bilər. Bunun qarşılığında müsbət cəhətlərininizi göstərməyə çalışın. Başqaları ilə özünüzü müqayisə edərək boş yerə rəqabətə başlamağın və ya özünü müdafiəyə çalışmağın bir mənası yoxdur. Kim nə deyirsə desin əsas özünüzlə rəqabət aparmalısınız. Əsas olan öz istedad və qabiliyyətlərinizi inkişaf etdirməkdir. Bu sizin özünüzü daha dərindən tanımanıza köməklik edəcəkdir. Müəyyən zaman müddətində ata-ananızda sizin bu istedad va qabiliyyətlərinizi görəcəkdir. Özünüzə güvənin və daima özünüzü inkişaf etdirməyə çalışın. Öz üzərinizdə işləyirsinizsə bu sizi məqsədlərinizin həyat keçməsinə köməklik edəcəkdir. Başqaları kimi olamaq, onların oxuduqları

ixtisaslarda oxumaq üçün deyil, özünüz üçün hansı peşənin münasib olduğuna qərar verib istək və arzularınızı həyata keçirmək üçün çalışmalısınız.

• *"Bax qardaşın (və ya bacın) ..."* yanaşması. Əgər lazımi səviyyədə diqqət etsəniz o zaman qardaş və bacıların bir-birilərinə mənfi və ya müsbət istiqamətdə necə böyük təsir göstərdiklərini müşahidə etmiş olarsınız. "Bax qardaşın (və ya bacın)... deyə başlayan hər bir cümlə sizi əsəbiləşdirəcək, yeni münaqişələrə, yeni ünsiyyət problemlərinə səbəb olacaqdır. Ata və analar ailədəki hər bir uşağın fərdi psixoloji xüsusiyyətlərini göz önündə tutaraq onlarla normal şəkildə ünsiyyət qurmağa səy göstərməlidirlər. Bu baxımdan onlara kömək etmək lazımdır. Sizdən daha çox bacarıqlı, qabiliyyətli və istedadlı görünsə də ailədəki uşaqların hər biri əslində öz həyatlarını müəyyənləşdirməlidirlər. Qardaş və bacımızın istedad və qabiliyyətli olması onun özü üçün gərəklidir. Mənim üçün əsas olan onun mənim, mənim də onun gələcək həyatını müəyyənləşdirməsinə mane olmamam olmalıdır. Əslində qarşımda rəqabət edəcəyim böyük bir gələcək var. Üniversitetə qəbul imtahanına qardaş və ya bacımla deyil, minlərlə abituriyentlə birlikdə girəcəyəm. gələcək peşə və iş həyatımda rəqabətdə olacağım bir çox başqa maneələr var. Əsas odur ki, bu şərtlərə özümü gərəkli səviyyədə hazırlayım. Gələcəyimi planlaşdırarkən atamın, anamın, bacım və qardaşımın dəstəyini almaq mənim özümü daha güclü hiss etməmə səbəb olacaqdır. Kim olursa olsun birinin bizi digər insanlarla rəqabətə sürükləməsinə şərait yaratmamalıyıq. Zamanımızı eyni evdə

yaşadığım insanlarla münaqişə içində keçirməkdənsə, başqa faydalı işlərə sərf etməliyik.

- *"Ancaq sənin kimi bir tənbəl bu ixtisası seçər".* Ətrafdakı insanların sizi aşağı və dəyərsiz görmələri, sizə lağ etmələri sizin həyat mübarizənizi zəiflədər. Əgər sizin düşüncələrinizlə başqalarının, daha doğrusu valideynlərin seçimləri bir-biri ilə təzad təşkil edirsə, o zaman həmin insanlarla səmərəli ünsiyyət vasitələrindən istifadə edərək danışmalısınız. Sizi mənəvi-psixoloji baxımdan yaralamadan insanların sizə dəyər vermələrini təmin etməlisiniz. Əgər seçimlərinizin doğru olduğundan əminsinizsə və seçiminizin doğru olduğuna ata-ananızı da inandırmanız lazımdırsa, o zaman bunu onlarla münaqişəyə girmədən etməlisiniz. Onlara inad olsun deyə bir ixtisas və peşəni seçmək deyil, sizin üçün uyuğun olanı seçib ətrafınızdakı insanları da buna inandırmalısınız.

- *"Doğru qərar verdiyinə inanıram"* yanaşması. Valideynlər tərəfindən peşəseçiminizə bu cür yanaşma tərzi sizin həyata güvənlə baxmanızı təmin edəcəkdir. "Doğru qərar verdiyinə inanıram" demək yaxşı valideyn olmaqdan daha çox ata-ananın sizinlə bir dost olmaq istəməsi anlamındadır. Ata və anamızın bizim qərarlarımıza güvəndiklərini görmək bizdə rahatlıq yaradır. Lakin burada bir cəhətə diqqət yetirmək lazımdır ki, artıq qəbul etdiyimiz qərarın bütün məsuliyyəti bizə aiddir. Biz anlamalıyıq ki, seçdiyimiz gələcək peşəmizdə uğurlu olub-olmamağın, bizə uyğun olan peşəni seçib-seçməməyin bütün nəticələrini biz yaşayacağıq. Ata və ananız sizin qərarlarınıza güvəndiyi

zaman məsuliyyət hissinizin formalaşdığını və gələcəyə daha ümidlə baxdığınızı hiss edəcəksiniz.

Övladlarında məsuliyyət hissi formalaşdırmağı arzulayan, demokratik ailə mühiti yaratmaq istəyən ata-analar uşaqlarının qərarlarına güvənməyi öyrənmək məcburiyyətindədirlər. Unutmaq lazım deyil ki, günümüzdə uşağının verdiyi hər bir qərarda onun yanında olduğunu ona hissetdirməyən ata-ana müəyyən bir müddətdən sonra övladı ilə arasında ünsiyyətin qopduğunun şahidi olar.

Hər zaman göz önündə tutulmalıdır ki, günümüzdə peşəseçimi işində ailənin rolu getdikcə azalmaqdadır. Çünki gedərək valideynlər artıq uşaqlarına daha az zaman ayırmaları, peşə və ixtisas sahələrinin sayının get-gedə artması bu işdə ata-anaların yeniyetmə və gənclərə daha az köməklik etdiklərini göstərir. Daha yaxşı olardı ki, ata-ananın da iştirakı ilə bu mövzuda məktəb psixoloqlarının məsləhəti və rəhbərliyindən faydalanılsın.

## PEŞƏ SEÇMƏK HƏYAT TƏRZİNİ SEÇMƏKDİR

Universitet və ya orta ixtisas məktəblərinə qəbul imtahanında iştirak etmək üçün sənəd verərkən ixtisas seçimi edən hər bir yeniyetmə və gənc həqiqətdə gələcəkdə yaşayacağı həyat tərzini seçir.

Bir çox insan seçmiş olduğu peşənin gətirəcəyi həyat tərzini bilmədiyi və ya bu baxımdan daha yaxşı araşdırmadığı üçün bütün ömrü boyu özünü faydasız, uğursuz və daxilən narahat hiss edir. Bu baxımdan həm gənclərin istər özləri, istərsə də yaxınları bir sıra problemlərlə qarşılaşırlar, həm də digər bir tərəfdən bu seçim ölkənin müəyyən sahələrdə ehtiyac hiss etdiyi insan gücü qaynağının israf edilməsi ilə nəticələnər. Bunun üçün də seçim siyahısını dolduran hər bir yeniyetmə və gəncin qeyd etdiyi ixtisas üçün özünə bu məsələ ilə bağlı olaraq bəzi suallar verməsi vacibdir.

Təbiidir ki, bu gün respublika məktəblərində psixoloji rəhbərlik işinə yeni başlanıldığını nəzərə alaraq bu sahədə yetərli səviyyədə işlərin aparıldığını söyləmək mümkün deyil. Ancaq bu işdə gənclərə yardım məqsədilə tərtib edilmiş bir sıra sualların onların gələcək həyatlarını müəyyənləşdirməkdə, daha doğrusu onlara sahib olacaqları peşələri seçməkdə yaxından köməklik edəcəyini düşünürük. Bir də

onu qeyd etmək lazımdır ki, məktəb psixoloqları məktəbdə yuxarı sinif şagirdləri ilə davamlı olaraq bu məsələ ilə bağlı söhbətlər aparmalı, onları sahib olduqları xüsusiyyətlərə uyğun və özlərinin də sevərək seçdikləri, gələcəkdə uğurlu olduqlarını düşündükləri peşələrə istiqamətləndirməlidirlər. Aşağıda daha uğurlu seçim etmək üçün yeniyetmə və gənclərə peşəseçimində kömək edə biləcək bəzi suallar sıralanmışdır. Fikrimizcə, məktəb psixoloqlarının bu sualları peşəseçimi mərhələsində olan yeniyetmə və gənclərə ünvanlamaları bu suallar vasitəsilə onların gələcək istək və arzuları, öz potensial imkanları və peşənin xüsusiyyətlərini də nəzərə alaraq seçim etmələrinə köməklik göstərməkdə faydalı olar. Gənclərə ünvanlanacaq suallara diqqət yetirək:

☞ 1. Bu ixtisas mənə bir peşə qazandıracaqmı?

Cavab "bəli" isə ikinci sual:

☞ 2. Bu peşənin mənim üçün təmin edəcəyi həyat tərzi məni daxilən məmnun edəcəkmi? Mən bu peşənin mənə gətirəcəyi həyat tərzini yaşamaq istəyirəmmi və ya buna hazırammı?

Cavab "bəli" isə üçüncü sual:

☞ 3. Dörd və ya iki illik seçdiyim ali məktəb və ya orta ixtisas məktəbini oxumaqla özümü illərini boş yerə itirmiş bir insan olaraq deyil, maraq hiss etdiyim sahədə bilik, bacarıq və vərdişlər qazanmış bir insan kimi hiss

edəcəyəmmi? Bu hiss mənə məmnunluq, daxili rahatlıq və sevinc verəcəkmi?

Bu üç sualdan sonra peşəseçimi məsələsinə aydınlıq gətirən suallar bunlardır:

☞ **1. Özümü 30 yaşında necə təsəvvür edirəm? Necə bir həyat yaşamaq istəyirəm?**

İnsanın 16-18 yaşında 35 yaşındakı arzu və istəklərini təxminən müəyyənləşdirməsi çox çətin ola bilər. Amma yenə də insanların böyük əksəriyyəti 35 yaşlarında evli və övlad sahibi olurlar. Bir ailə qurumunu ayaqda saxlaya bilmək üçün seçməyi düşündüyünüz həyat tərzi necədir? Bəzi işlər gənclik illərində insana yaxşı maddi gəlir və parlaq bir həyat təmin edir. Ancaq bəzən gənclikdə məmnunluq hissi yaradan belə peşələrin bəzilərindən insanlar 50 yaşlarında uzaqlaşmağa məcburdurlar. Bəzən isə əksinə olur. Bütün gənclik illəri boyunca səylə çalışmaq, qatlaşılan zəhmətlər meyvələrini həyatın sonrakı illərində verir. Məsələn, bir universitetdə müəllim olaraq çalışmaq elmi iş üzərində işləmək belə fəaliyyətə misaldır. Otuz beş yaşlarından başlayaraq elm sahəsində müəyyən qədər öz sözünü demiş gənclərin nüfuzu və sosial təsirlilik dairəsi artır, ətraflarına toplananların sayı çoxalır. Bu da həyatı zənginləşdirir və mənalandırır. Bu iki uc nöqtədə duran nümunələrə görə siz gələcək həyatınızı necə qurmaq istərdiniz?

☞ **2. Böyük bir şirkətdə, dövlət müəssisəsində çalışmaq, yoxsa sərbəst işləmək istəyirəm?**

Böyük şirkətdə, dövlət müəssisələrində işləmək daha çox insanın əmək fəaliyyətini müəyyən bir zaman müddətində, iş saatı başlayandan bitənədək əhatə edir. İş iş yerində qalır və insan günün digər hissəsini, yəni işdən sonrakı boş zamanını istədiyi kimi keçirir. Bunun müqabilində həmin insanın şirkətdə və ya dövlət müəssisəsində bəzi qaydalara tabe olması və digər insanlarla uzlaşması məcburidir.

Sərbəst olaraq işləmək imkanı verən memarlıq, həkimlik, rəssamlıq, bəstəkarlıq, hakimlik kimi peşəllərdə insanlar öz iş qanunlarını özləri yazırlar. Bu işlərdə çalışanlar həftə sonları da daxil olmaqla demək olar ki, hər gün, bəzən hətta gecələri də çalışırlar və bütün çətinliklərin öhdəsindən özləri tək başına gəlməlidirlər. Belə insanlar əksər zamanlarda illik məzuniyyətdən belə özlərini məhrum edirlər.

☞ **3. Böyük, yoxsa kiçik şəhərdə yaşamaq istəyirəm?**

Bəzi işlər insanı böyük şəhərlərdə yaşamağa məcbur edir. Mətbəə işi, bank işi, jurnalistlik, reklam işi belə fəaliyyətlərdəndir. Böyük şəhərlərdə yaşamaq insanın bir neçə saatını yolda keçirməyi, hər gün müxtəlif insanlarla ünsiyyət qurmağı tələb edir. Böyük şəhərlər insanların həyatına daha çox stres qatır.

Kiçik yaşayış məntəqələri insanların müəyyənləşdirilmiş sərhədlər içində daha çox sakit bir həyat sürmələrinə imkan verir. Nə insanlararası ünsiyyətlərdə, nə də bir yerdən başqa yerə getməkdə insan həyatında önəmli bir problem olmur. Kiçik şəhər və qəsəbələrdə yaşayanlar böyük şəhərlərdə yaşayanların əksinə zamanın az olmasından şikayət etmirlər, hər gün tanış üzlərlə salamlaşaraq işlərinə gedirlər. Onlar özlərinə və ailələrinə daha çox zaman ayıra bilirlər. Kiçik yaşayış məntəqələrində yaşamaq insanda sakit həyatı təmin edir.

### ☞ 4. Çox pul qazanmaq istəyirəmmi?

Təbiidir ki, bu suala müsbət cavab verənlər daha çox olacaq. Ancaq insanın seçdiyi həyat tərzi, üzərinə götürdüyü məsuliyyət, işin müddəti və peşənin həyatına gətirdiyi yükü əvvəlcədən müəyyənləşdirmək mümkündür və çox vacib məsələlərdəndir. Bunu bilmək üçün öncədən seçilən peşə ilə əlaqədar olaraq geniş şəkildə düşünmək lazımdır.

Həyatda uğur qazanmış həkimlər, hakimlər olduqca rahat və yüksək standartda, maddi cəhətdən sıxıntısız bir həyat yaşayırlar. Ancaq bu onların öz işlərini, sahib olduqları peşənin gərəkli funksiyalarını birbaşa olaraq özləri gördükləri müddətcə davam edir. Bu peşələlr böyük mülklər və gələlcəklərini "sığortalamaq" üçün böyük maddi gəlir qazandırmaz. Buna baxmayaraq bu peşə mənsublarının özlərinə və ailələrinə ayıracaq zamanları çox azdır.

### ☞ 5.Güvənli bir iş istəyirəm və yaxud peşəmdə risk almağa hazırammı?

İstər dövlət, istərsə də özəl qurumda maaşa bağlı bir peşə sərhədli, ancaq güvənli bir həyatdır. Öz işini özü quran bir insanın önündə hər cür uğur imkanı olduğu kimi, hər cür uğursuzluq ehtimalı da vardır. Həyatda bəzən var-dövlətə sahib olan insanların bu zənginliyinə qibtə edənlər onların bütün bunları əzab-əziyyətlə qazandıqlarını bir o qədər də düşünmürlər. Riskə girməyi gözə almaq, insanın gələcəyini ciddi şəkildə müəyyənləşdirən çox önəmli bir xüsusiyyətdir. Bunun əksinə müəyyən bir işin qarşılığında əldə edilən maaşa bağlı peşələr insana güvən və rahatlıq verir. Maaşın təmin etdiyi imkanlarla müəyyən çərçivə daxilində yaşamağa məcbur edən bu peşələrdə çalışanların həyatlarında böyük dalğalanmalar olmaz.

### ☞ 6. Səyahət etməyi sevirəmmi?

İstər qısa, istərə də uzun zaman müddətində olsun səyahət etmək bir stresdir. Çünki səyahət yorğunluqla bərabər insanı yeni mühitə və şərtlərə uyğunlaşmağa məcbur edir. Bəzi insanlara səyahətin gətirdiyi məcburedicilik hissi mənfi təsir göstərdiyi halda, bəzi insanlar bu vəziyyətdən xüsusi zövq alırlar. Siz hansı qrupdansınız? Təbiidir ki, mütləq və mütləq seçəcəyiniz peşənin bu xarakter xüsusiyyətinizə uyğun olmasına diqqət etməlisiniz.

**7. Harada işləmək mənə zövq verir? Açıq havada, yoxsa bina içində?**

Açıq havada sadəcə kənd təsərrüfatı işçiləri işləmir. Bir çox mühəndislər və iqtisadiyyatçılar da iş saatlarını iş otağı və ya kabinetdən kənarda keçirirlər. Siz necə xoşlayırsınız? İsti və ya soyuq günlərdə otağınızın sabit temperaturunu və rahatlığını seçərsiniz, yoxsa bütün gününüzü masa başında keçirməkdənsə gündəlik həyatın hərəkətliliyinə qoşulmağı istəyirsiniz? Seçməyi düşündüyünüz peşənin bu baxımdan sizə uyğunluq dərəcəsi necədir?

**8. Hansı dərslərdən daha çox zövq alıram?**

Orta məktəbdə müəllimlər dərsləri sevmək və ya sevməmək baxımından çox əhəmiyyətli bir müəyyənləşdirici olsa da, bir şagirdin hansı dərslərə çalışmanın onun üçün çətin olduğu, hansı dərslərə çalışmanın isə ona zövq verdiyi haqqında bir fikri vardır.

Orta ümumtəhsil məktəblərində tədris edilən fənləri konkret olaraq dəqiq elmlər, humanitar elmlər, təbiət elmləri, incəsənət və dil olaraq dörd qrupda toplaya bilərik. Şagirdin bu dərslərdəki müvəffəqiyyət səviyyəsi onun bu dərslərlə bağlı, əlaqəli olan peşələrdə uğurlu olacağı baxımından ümumi bir fikir və ipucları verir. Universitet təhsilinin və peşəseçimini bu ipuclarını göz önündə tutaraq planlaşdırmaq faydalı olardı. Digər bir tərəfdən orta məktəbdəki təlim uğuru gələcək peşə uğuru barəsində dəqiq bir fikir verməsə də şagirdin maraqlanmaqdan zövq aldığı və ya

çətinlik çəkdiyi sahələri bilməsi və seçimini ona görə etməsi yerində olar.

Beləliklə də gələcəkdə meydana gələ biləcək sahib olduğu peşəni sevməmək və ya alınmış təhsildən kənar bir sahədə peşə seçmək baxımından risk azaldılır.

Şagirdin istedad və qabiliyyətlərinə uyğun olduğu halda müxtəlif səbəblərdən dolayı xoşuna gəlməyən peşələr də ola bilər. Məsələn, insanlarla yaxın ünsiyyət qurmaqdan xoşlanmadığı halda uyğun dərslərdən "əla" qiymət alır deyə həkim olmaq bu peşədə sonrakı illərdə daxili narahatlıq yarada bilən bir haldır. Buna görə də gənc peşə seçərkən mütləq və mütləq o peşənin öz fərdi xarakter xüsusiyyətlərinə uyğun olub-olmadığını müəyyənləşdirməsi çox vacibdir.

### ☞ 9. İnsanlarla normal ünsiyyət qura bilirəmmi?

Ümumiyyətlə deyə bilərik ki, bütün peşələrin insanlarla və insan münasibətləri ilə bağlılığı vardır. Ancaq bəzi peşələrdə insanlarla ünsiyyət və insanlara qarşı hisslər və davranışlar seçilən peşədə uğur qazanmaq və daxili psixoloji rahatlıq hiss etmək üçün böyük önəm daşıyır.

Bəzi peşələr insanlara köməklik göstərməyi (həkimlik, psixoloqluq, hüquqşünaslıq və s.), bəziləri insanlara xitab etməyi (müəllimlik, jurnalistlik və s) tələb edir.

İnsanlarla rahat və sağlam ünsiyyət qurmaqda çətinlik çəkən, problemlər yaşayan hər hansı bir gəncin bu peşələrdən birini seçməsi və onlara yiyələnmək istəməsi həm onun özünün bu peşədə uğursuzluğuna səbəb olar, həm də ondan

xidmət gözləyən insan və müəssələr bu seçimdən ziyan görər.

Burada bir cəhətə diqqət yetirilməlidir ki, gəncin özünün bu xüsusiyyətlərini bilməsi vacibdir. Yoxsa təbii ki, mütəxəssislərin köməyi və insanın öz səyi ilə hər vaxt bu problemləri aradan qaldırmaq imkanı vardır. Ancaq insanın sosial səviyyəsi yüksək bir nöqtəyə oturduğu zaman bu çatışmamazlıqlarını görə bilməməsi və yalnışı özündən kənarda axtarması tez-tez müşahidə olunan bir vəziyyətdir.

Bəzən isə bir çox peşələrdə insanlarla münasibətlərə daha az ehtiyac tələb olunur. Mühəndislik, memarlıq, dekorçuluq, rəssamlıq və s.

Təbiidir ki, çox zaman qarşıya belə bir sual çıxır: Bəs təlim müvəffəqiyyəti peşə uğuru mövzusunda müəyyən bir fikir verirmi?

Təlim uğurunun peşə uğuruna nə qədər təsir etdiyi artıq bir neçə illərdir ki, müzakirə obyektinə çevrilən bir mövzudur. Belə müzakirələr zamanı bir çox mütəxəssislər təlimdə uğursuz, ancaq peşəsində uğurlu və ya təlimdə uğurlu, lakin peşəsində uğursuz olanların varlığını xatırladır və bunları misal göstərirlər.

Bütün bu müzakirələrdən belə nəticə çıxarılır ki, gəncin hazırki təlim uğuru onun gələlcəkdəki peşə uğuru baxımndan tam mənada bir fikir vermir. Başqa bir deyişlə, təlim uğuru peşə uğurunun 100%-ni təşkil etmir. Çünki peşə uğuru kamillik, qərarlarda qətilik və insanlarla normal ünsiyyət kimi bir çox amilin də təsirinə məruz qalır. Ancaq bütün bu deyilənlərlə yanaşı, yenə də təlim müvəffəqiy-

yətinin peşə uğuru baxımından orta dərəcədə müəyyən bir fikir verdiyini unutmamaq lazımdır.

Qısaca olaraq yuxarıda deyilənləri konrctləşdirərək qeyd edə bilərik ki, ixtisas seçimini həyata keçirərkən oxuyacağı universiteti müəyyənləşdirən gənc yaşayacağı həyat tərzini seçir. Seçdiyi ali məktəb proqramı üçün gəncin bu seçimi etməklə bir peşə qazanacağını, yoxsa maraq hiss etdiyi bir sahədə bilk əldə edəcəyini qarşısına məqsəd qoyduğu bilinməlidir.

Yeniyetmə və gənclərə peşəseçimində köməklik etmək məqsədilə ümumtəhsil məktəblərinin kitabxanalarında peşələr, onların xüsusiyyətləri, bu peşələrin tələb etdiyi bilik, bacarıq, vərdiş, istedad və qabiliyyətlər haqqında məlumat verən vəsaitlərin olması lazımdır. Təbii ki, ilk öncə belə vəsaitlərin hazırlanmasına böyük tələbatın olduğunu düşünürük. Çünki yeniyetmə və gənclərin peşələri tanımalarına elə həmin vəsaitlərin böyük köməyi ola bilər.

## PEŞƏSEÇİMİNDƏ TEMPERAMENT TİPİNİN NƏZƏRƏ ALINMASI

Yeniyetmə və gənclərin peşəseçimi mərhələsi çətin və məsuliyyətli mərhələdir. Bu mərhələdə düzgün seçim etmək heç də asan deyil. Bu seçim insanın gələcək həyatına, onun karyerada uğurlarına və ya uğursuzluğuna, həyatından məmnuniyyətinə birbaşa təsir edir. Bunun üçün də peşəseçimində bir xüsusiyyətə də diqqət yetirmək gərəklidir ki, bu da yeniyetmə və gənclərin temperament tipləridir. Seçilən peşənin tələb etdiyi həyat şəraiti yeniyetmə və gəncin temperament tipinə uyğun olmalıdır.

Bildiyimiz kimi, insanların temperament tipinin dörd növü məlumdur: xolerik, sanqvnik, fleqmatik və melanxolik. Təbiidir ki, tam olaraq bir tipə sahib olan insan tapmaq çətindir. İnsanların demək olar ki, hamısı bir neçə tipin xüsusiyyətlərini daşıyır. Lakin buna baxmayaraq üstünlük dərəcəsinə görə hər hansı bir yeniyetmə və gəncin daha çox aid olduğu temperament tipini müəyyənləşdirmək və bu xüsusiyyətləri nəzərə alaraq onu uyğun peşəyə yönləndirmək çox önəmlidir. Bunun üçün də yeniyetmə və gəncləri sahib olduqları temperament tiplərinə uyğun olan peşələrlə bağlı və bu peşələrin tələb etdiyi xüsusiyyətlər haqqında

məlumat sahibi olmanın məktəb psixoloqlarının istiqamətləndirmə işinə böyük yardım edəcəyini düşünürük.

Temperament tiplərinin xüsusiyyətləri və onlara uyğun peşələri əsasən belə təhlil edə bilərik:

***Xolerik tip-*** bu tipə sahib olan yeniyetmə və gənclər həddən artıq hövsələsiz, tez özlərindən çıxan olurlar. Onların son dərəcə coşğun xarakteri var. Onlarda öz maraqlarını həyata keçirməyə yüksək cəhd, inadkarlıq, dözümlülük mövcud olur. Başladıqları işi axıra qədər yerinə yetirməyə meyilli olurlar. Bu tipə sahib olan yeniyetmə və gənclər ən çətin, daha çox enerji tələb edən işləri öhdələrinə götürməyə meyl edir və bu işləri yerinə yetirməkdə iddialı olurlar. İnadkardırlar, istənilən problemlə üzləşdikdə özlərini itirmir, asanlıqla vəziyyətdən çıxış yolu tapırlar. Xoleriklər saatlarla bir iş üzərində çalışa bilirlər və yorğunluqlarını üzərlərindən daha tez atırlar. Monoton həyat onlar üçün deyil. Uzun müddət eyni məsələ üzərində çalışmağı sevmirlər. Bunun üçün də bu temperament tipinə sahib olan yeniyetmə və gənclər yeni məsələlər üzərində çalışmaq, yeni layihələr hazırlamaq, yeni problemlərin həllinə istiqamətlənmək kimi keyfiyyətlər tələb edən peşələrdə daha çox uğur qazanarlar. Bu onların əsas həyat tərzidir. Onlar daima yeni ideyaların irəli sürülməsində təşəbbüskarlıq göstərirlər. Bu tipə sahib olan bir çox insanlar adətən yeni biznes layihələri ilə uğur qazanan, yaradıcı, təşəbbüskar insanlardır.

Xolerik tipə sahib olan yeniyetmə və gənclər üçün ən uyğun peşələr əsasən bunlardır: televiziya müxbiri (bu peşə sahibləri hər gün yeni bir mövzu ilə bağlı araşdırma

apararaq məlumat toplayırlar), rejissor, aktyor, təyyarəçi, cərrah, inşaatçı, aşbaz, müstəntiq, sahibkar, satış meneceri, layihə rəhbəri və s.

*Fleqmatiklər* sakit təbiətli, həddindən artıq soyuqqanlıdırlar, qaradinməzdirlər. Uğursuzluğa məruz qaldıqda buna önəm vermirlər. İşə dərhal girişmirlər, lakin başladıqları işi axıra qədər yerinə yetirirlər. Təkliyi sevirlər. Onlar yardımsevərdirlər və hər hansı bir situasiyaya başqalarının gözü ilə baxmağı, təhlil etməyi bacarırlar. Buna görə də onlar yaxşı diplomat ola bilərlər. Vərdiş və adətlərini olduqca ləng dəyişə bilirlər. Bununla yanaşı fleqmatiklər olduqca işgüzar olurlar. Dözümlü və özlərini ələ ala biləndirlər. Yeni insanalra çətin alışırlar. Çox çətinliklə söhbətə qoşulurlar. Heç bir tip fleqmatik qədər təmkinli deyil. Onları həyəcanlandırmaq, hirsləndirmək asan deyil. Bu xüsusiyyətlərindən dolayı fleqmatiklər stresli və həyəcanlı iş şəraitini xoşlamırlar. Onlar üçün səbr və əzmkarlıq tələb edən peşələr daha çox uyğundur. Fleqmatiklər təşəbbüskar tip deyildirlər. Bunun üçün də onlar rəhbər vəzifələrdə bir o qədər də uğur qazana bilmirlər.

Fleqmatiklər üçün analitik fəaliyyət tələb edən peşə sahələri daha uyğundur. Bunun üçün də iqtisadiyyat, maliyyə və elmi-tədqiqat sahələrində çalışmaq onlar üçün daha əlverişlidir. Belə yeniyetmə və gənclər mühasibatlıq, ədəbi mətnlərin redaktəsi, diplomatiya, kənd təsərrüfatı işləri ilə bağlı peşələrdə uğur qazana bilərlər. Fleqmatiklər eyni zamanda həkim-terapevt ola bilərlər, lakin reanimatoloq və ya cərrahlıq onlar üçün deyil.

***Sanqvniklər*** diqqətini cəlb edən hər şeyə canlı reaksiya verir. Yüksək fəallığa malik olduğuna görə çox işgüzar olur, hər bir yeni işə dərhal girişir, həmişə birinci olmağa çalışır, yorulmadan uzun müddət işləyə bilirlər. Sanqviniklər həddən artıq qayda-qanuna əməl edən olurlar. Sürətli hərəkətə, çevik düşüncəyə, sürətli nitq tempinə malik olurlar. Hissləri asanlıqla bir-birini əvəz edə bilir. Rast gəldikləri insanlarla asanlıqla ünsiyyətə girə bilir, bir işdən digərinə asanlıqla keçə bilirlər. Heç bir tip sanqvinik qədər istənilən şəraitə, vəziyyətə tez uyğunlaşa bilmir. Onları bir dəqiqə bir yerdə saxlamaq mümkün deyil. Oturaq və monoton iş onlarlıq deyil. Ətrafda olan heç nə onların diqqətindən kənarda qalmır. Hər şeyə maraq göstərirlər və maraq obyektləri tez-tez dəyişir, davamsız olur. Elə ona görə də, böyük həvəslə başladıqları işdən son dərəcə süstlüklə əl çəkirlər.

Son dərəcə emosinal olsalar da, yaddaşları zəifdir. Onların yaxşı təşkilatçılıq bacarığı var və rəhbərlik işlərində uğur qazanmaq imkanları böyükdür. Sanqvniklər anadangəlmə liderlik xüsusiyyətinə sahibdirlər. Onlar daha çox insanlarla daim əlaqədə olmağa can atırlar. Oturaq peşələr onlar üçün uyğun deyil. Sanqvniklər yaxşı pedaqoq, menecer, adminstrator, jurnalist, hüquqşünas, mühəndis və psixoloq ola bilərlər.

***Melanxoliklərdə*** həssaslıq həddindən artıq yüksək olur. Kiçik bir hərəkətdən dərindən təsirlənirlər. Hədsiz dərəcədə küsəyəndirlər. Kiçik bir qanqaraçılığı uzun müddət unutmurlar. Onlarda özlərinə inam hədsiz dərəcədə aşağı

olur. Kiçik uğursuzluq onlarda dərin, bəzən ciddi əhval pozğunluğu yaradır. Həddindən artıq təkliyə qapılırlar. Onlar tez ruhdan düşür, bəzən gücü çatan işi belə axıra qədər yerinə yetirmirlər. Onlarda içə qapanıqlıq yüksək olur. Ən kiçik problemlə üzləşdikdə belə özlərini itirirlər, vəziyyətdən çıxış yolu tapa bilmirlər. Stresli vəziyyətlər və ya tənqid onların öz qüvvələrinə inamını tamamilə azaldar və hətta onlarda depressiyaya səbəb ola bilər. Onların ən güclü xüsusiyyətləri çalışqanlılıq, qüvvətli müşahidə və detallara diqqət yetirmək qabiliyyətinə sahib olmaqdır. Belə insanlar üçün ən rahat peşələr təkbaşına və ya bir kompüter ilə işləməkdir. Melanxoliklər daha çox ünsiyyət tələb edən peşələri seçməkdən uzaq olmalıdırlar. Onlar yaxşı rəssam və ya dizayner, yazıçı, bəstəkar, proqramçı, memar, baytar, alim və s. kimi peşələrdə daha çox uğur qazanarlar.

Təbii ki burada bir cəhəti də qeyd etmək lazımdır ki, peşəseçimində mütləq temperament tipləri ilə yanaşı yeniyetmə və gənclərin fərdi istedad və qabiliyyətləri də nəzərə alınmalıdır.

# NƏTİCƏ

Metodik vəsaitin işlənməsindən əsasən bu nəticələrə gəlinmişdir ki, müasir dövrümüzdə peşəseçimi fəaliyyətləri istər şagirdlər, istər ailələr, istərsə də toplumlar üçün çox önəmli məsələlərdəndir. Təhsilin strateji məsələ olması elə bu önəmli sahənin cəmiyyətin gələcək inkişafını təmin edəcək insangücü, gərəkli və tələb olunan mütəxəssis hazırlamasına çox bağlıdır. Bu günkü təhsil müəssisələrinin işi və vəzifəsi sadəcə gənc nəsli biliklərlə silahlandırmaq, bu bilikləri bacarığa və vərdişə çevirmək imkanı yaratmaq deyil. Bu qurumların ən önəmli vəzifələrindən biri də yeniyetmələri və gəncləri sahib olduqları bilik, qabiliyyət, maraq və meyllər doğrultusunda cəmiyyət üçün faydalı insanlar kimi formalaşdırmaq və eyni zamanda özlərini sahib olduqları peşələrdə sosial-psixoloji baxımdan dəyərli olduqlarını hiss etmələrinə və bununla da daha səmərəli çalışmalarına şərait və imkan yaratmaqdır.

Yuxarıda qeyd edilənlər məktəblərdə psixoloji xidmət sahəsində peşəseçiminə psixoloji rəhbərlik işinin günün tələbləri istiqamətində, lazımi səviyyədə qurulmasını tələb edir. Bu baxımdan da hazırlanan metodik vəsaitdə bu sahənin tarixi inkişafına nəzər salınmış, müxtəlif nəzəriyyələr diqqətə çatdırılmışdır.

Metodik vəsaitdə peşəseçiminə psixoloji rəhbərlikdə bilinməsi gərəkli olan cəhətlər diqqətə çatdırılmış və bu sahədə ən önəmli şərtin şagirdlərin özlərini tanımalarına şərait yaradılması, qabiliyyət və potensial imkanlarının üzə çıxarılması, eyni zamanda peşələrin xüsusiyyətlərinin dərindən araşdırılması, yeniyetmə və gənclərin öz xüsusiyyətləri ilə peşələrin xüsusiyyətləri arasında uyğunluğun olub-olmamasına diqqət edilməsi vacib məsələlərdəndir.

Şagirdlərin peşəseçimi məsələsində ailənin də üzərinə böyük məsuliyyət düşür. Çünki ailədə valideyin təsiri yeniyetmə və gənclərin peşəseçiminə ailə çox böyük təsir göstərir. Bəzən bu problemin həllində valideynlərin pedaqoji və psixoloji məlumatsızlığı onların övladlarını yanlış yönləndirməsinə səbəb olur. Bunun üçün də məktəb, xüsusən məktəb psixoloqları bu işdə də valideynlərə yaxından kömək etməlidirlər. Məhz bu zaman birgə fəaliyyət uğurlu nəticələrə səbəb olar.

Peşəseçiminin bir inkişaf prosesi olması unudulmamalıdır. Bu iş daha məktəbəqədər dövrdən başlayaraq yeniyetmə və gənclərin peşəseçimi ilə bağlı qərar verməsi ilə nəticələnən bir prosesdir və bu proses müəyyən inkişaf mərhələlərindən keçir. Bu işdə məktəb psixoloquna valideynlərlə yanaşı ibtidai siniflərdə sinif müəllimləri, orta və yuxarı siniflərdə isə sinif rəhbərlərinin gərəkli məlumatların toplanılmasında və şagirdlərin istiqamətləndirilməsində lazımi köməyi göstərmələri vacibdir.

# İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT SİYAHISI

1. Bayramov Ə.S., Ə.Əlizadə. Psixologiya. Bakı, 2002
2. Erdoğmuş N. Karyer geliştirme. Kuram ve uygulama. Ankara, 2003
3. Əmrahlı L. Psixoloji xidmət. II kitab: Psixoprofilaktika. Bakı, 2010
4. Gardner H. Çoklu zeka kuramı. Zihin çerçeveleri. İstanbul, 2004
5. Kepçeoğlu M. Psikolojik danışma ve rehberlik. Ankara,1994
6. Kuzgun Y. Meslek rehberliği ve danışmanlığına giriş. İstanbul, 2012
7. Tan H. Psikolojik danışma ve rehberlik. İstanbul, 2000
8. Yeşilyaprak B. Eğitimde rehberlik hizmetleri. Ankara, 2004
9. Yeşilyaprak B. Mesleki rehberlik ve karyer danışmanlığı. Ankara, 2012

**«Elm və təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

Çapa imzalanmış **27.06.2014**
Şərti çap vərəqi **6,2.** Sifariş **№ 219**
Kağız formatı **60x84 1/16.** Tiraj **100**

---

Kitab **«Elm və təhsil»** nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.
**E-mail:** ***nurlan1959@gmail.com***

Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.